# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər bir sənətkarın yaradıcılıq yolu ilk növbədə onun yaşanan real ömür yoludur. Bu çətin, şərəfli yolun bütün detalları onların tərcümeyi-hallarının, ədəbi məfkurəsinin və sənət dünyasının əsasını təşkil edir. Sovet dövrü ədəbiyyatşünaslığında çox zaman yazıçı və şairlərin yaradıcılıq yolunun tədqiq və təqdimi zamanı ideoloji prinsiplər əsas götürülmüş, sənətkarların bir çox tərcümeyi-hal faktları və müəyyən əsərləri barədə susmaq, bəzi zəruri informasiyaların üzərindən sükutla keçmək lazım gəlmiş, həyatları birtərəfli şəkildə öyrənilmişdir. Halbuki əsas tərcümeyi-hal faktları ilə yanaşı, kiçik, ilk baxışda adi görünən detallar da yaşanmış ömrün müəyyən anlarıdır. Bu kiçik təfərrüatları nəzərə almadan keçilmiş ömür yolunun geniş miqyaslı məsələlərini bütün dəqiqliyi və aydınlığı ilə öyrənmək qeyri-mümkündür. Çünki hər bir sənətkarın yaradıcılığı onun tərcümeyi-halının əsas hissəsi, eyni zamanda ədəbi məfkurəsinin ifadəsidir. Romantik şair Abbas Səhhət "məsləkim tərcümeyi-halımdır" - dedikdə həm də bunu nəzərdə tutmuşdur. Bu mənada "məsləki tərcümeyi-halı"ndan görünən filosof şair-dramaturq Hüseyn Cavidin mühiti, müasirləri və təhsil aldığı mollaxana, M.T.Sidqinin Tərbiyə məktəbi, Cənubi Azərbaycanda "Talibiyyə" mədrəsəsi və həyatının Türkiyə dövrlərinin öyrənilməsi mühim aktuallıq kəsb edir.

Özünəməxsus sənət yolu seçən, "tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlı" olan Cavid əsərlərində həyati problemləri, insan talelərini, milli və bəşəri məsələləri əks etdirməklə, xalqa, vətənə olan sədaqət hisslərini ifadə etmiş, ziddiyyətli bir zamanda daha çox Şərq tarixinə müraciət edərək, milli obrazlar yaratmışdır. Yaradıcılığında milli, tarixi, siyasi dəyərləri sistemli şəkildə əks etdirən ədibin həyat və yaradıcılığının hələ sağlığından öyrənilməsinə baxmayaraq, ədəbi məfkurəsi və sənətinin günümüz üçün aktuallığını itirməyən bir sıra problemlərinin çağdaş təfəkkür işığında və milli müstəqillik kontekstində yenidən araşdırılmasına ehtiyac yaranır. Onun türkçülük, turançılıq ideyaları, zamana bədii tarixi baxışları və yanaşmaları ədəbiyyatşünaslıqda yenidən öyrənilməli, təhlil olunmalıdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini H.Cavidin dövrü, həyatı, ədəbi mühiti, müasirləri, yaradıcılığı və ədəbi-elmi mühitdə yaradıcılığına verilən dəyərin araşdırılıb ümumiləşdirilməsi təşkil edir.

Tədqiqatın predmeti həyatının müxtəlif mərhələlərində yaşadığı, özünəməxsus xüsusiyyətləri ilə səciyyələnən, ayrı-ayrı mühitlərin Cavidin dünyagörüşü və mənəvi-əxlaqi təkamülünə təsiri, yaradıcılığını istiqamətləndirməsi; ailə mühiti və müasirləri ilə müxtəlif əlaqələri, bu əlaqələrin nəticəsində müəyyənləşən ictimai-ədəbi fəaliyyətinin forması, məzmunu və mahiyyəti; ədəbi irsi və bu irsə yanaşma, ədəbi məhkəmələr və tədqiqi vəziyyətidir. Tədqiqatlarda istifadə edilən bir sıra dəyərli elmi-nəzəri fikir və müddəalar da dissertasiyanın predmetinə daxil olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Cavidin Azərbaycan ədəbi mühitindəki yerini müəyyən etmək, publisistikası və epistolyar irsini dəyərləndirmək, müasirləri ilə əlaqələrini, onların şairin ədəbi şəxsiyyətinə və yaradıcılığına münasibətlərini müəyyənləşdirmək, doğulduğu və təhsil aldığı Naxçıvan, Təbriz, İstanbul, çalışdığı Tiflis, Gəncə, Bakı ədəbi mühitlərinin dünyagörüşü və yaradıcılıq prinsiplərinin formalaşmasında və inkişafında rolunu göstərmək, aparılan araşdırmaların elmi şərhini verməkdən ibarətdir. Bu məqsəddən irəli gələn aşağıdakı elmi vəzifələri yerinə yetirmək zəruridir.

1.Hüseyn Cavidin anadan olduğu, uşaqlıq və yeniyetməlik illərini keçirdiyi Naxçıvan mühiti və böyüyüb boya başa çatdığı maarifpərvər ailə mühitinin səciyyəvi xüsusiyyətlərini, təhsil aldığı Naxçıvan-Təbriz-İstanbul mühitlərinin gələcəyin filosof şairinə təsirini müəyyən etmək;

2.Mollaxanadakı təhsil illərini, “Tərbiyə” məktəbində oxuduğu dövrü aydınlaşdırmaq, bu illərin Cavidin dünyagörüşünün formalaşmasında və ideya-mənəvi təkamülündə rolunu aşkara çıxarmaq;

3.Talibiyyə mədrəsəsindəki təhsil illərini, İran mühitini, bu mühitin şairin təkamülündəki yerini aydınlaşdırmaq;

4.İstanbul universitetindəki təhsil mühitini, şairin türk ədəbi mühiti ilə əlaqələrini, İstanbul mətbuatında dərc edilmiş şeirlərini tədqiq etmək;

5.Şairin naxçıvanlı müasirləri; Məhəmməd Tağı Sidqi, Qurbanəli Şərifzadə, Şeyx Məhəmməd, Cəlil Məmmədquluzadə, Eynəli bəy

Sultanov, Xəlil ağa Hacılarovla olan əlaqələrini, bu əlaqələrin şairin dünyagörüşündə buraxdığı izləri, müasirlərinin yaradıcılığına münasibətini dəyərləndirmək;

6.Dünyagörüşünün formalaşması və bədii yaradıcılığının inkişafında Gəncə, Tiflis, Bakı mühitlərinin, Almaniya səfərinin əhəmiyyəti;

7.Cavid və Azərbaycanda sovet dövrü ictimai-ədəbi mühiti, dövrün ideologiyasına xidmət etməyən şairə ikili münasibəti - ədəbi məhkəmələri araşdırmaya cəlb etmək;

8.Cavidin həyatı və yaradıcılığının müstəqilliyə qədərki tədqiqat tarixini öyrənmək və ümumiləşdirib dəyərləndirmək.

9.Görkəmli dövlət xadimi Heydər Əliyev və Hüseyn Cavid sənəti məsələlərini işıqlandırmaq.

**Mövzunun tədqiq tarixi**. Hüseyn Cavidin həyatı və sənəti hələ sağlığından başlayaraq elm və sənət adamlarının diqqətini cəlb etmiş, bu istiqamətdə xeyli tədqiqat əsərləri meydana çıxmışdır.1.A.Şaiq[1], H.Zeynallı[2] və s. Şair bəraət aldıqdan sonra onun yaradıcılığına dair tədqiqatın miqyası genişlənmiş, görkəmli alimlərdən M.C.Cəfərov[3], Y.Qarayev[4], M.Əlioğlu[5], Z.Əkbərov[6], R.Z.Xəndan[7], İ.Həbibov[8], X.Əlimirzəyev[9], Ə.İsmayılov[10], H.Həşimli[11], İ.Orucəli[12], Tural Hüseynli[13] və başqaları Cavidin Azərbaycan ədəbiyyatı tarixində yerini təyin edən tədqiqat əsərləri

---

[1] Zeynallı H. "Maral" xüsusunda qısa mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s. 31 - 35.

[2]Şaiq A. Cavidin "İblis" faciəsi haqqında duyğularım // Şaiq A. Əsərləri. 5 cilddə. 4 c., Bakı: Azərnəşr, 1977, s. 177-191.

[3] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 262 s.

[4] Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərnəşr, 1965, 192 s.

[5]Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, 215 s.

[6]Əkbərov Z. "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, 148 s.

[7]Xəndan R. Z. Cavid sənəti. Bakı: Birlik,1981, 85 s.

[8]Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, 167 s.

[9]Əlimirzəyev X. Dramaturgiyamızda ideal və qəhrəman. Bakı, 1995, 210 s.

[10]Ə.Ismayılov. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı: Azərnəşr, 1996, 164 s.

[11]Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri. Bakı: Elm və Təhsil, 2012, 62.

[12]Atilla. Hüseyn Cavidin mənzum dramları. I hissə, Bakı: Adiloğlu, 2011, 436 s.

[13] Hüseynli T. Hüseyn Cavid və Azərbaycan mühacirət ədəbiyyatşünaslığı. Bakı: Yazıçı, 2004, 214 s.

yaratmışlar. Mütəfəkkir şairin sənət qüdrəti, kəşməkeşli və faciəli taleyi akademik R.Hüseynovun "Vaxtdan uca"[1], "Əbədi Cavid"[2], A.Turanın "Hüseyn Cavid"[3], "Cavidnamə"[4] monoqrafiyalarında, sənətinin poetikası AMEA-nın müxbir üzvü K.Əliyevin "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri"[5] ,"Hüseyn Cavidin şəxsiyyəti və poetikası"[6] , 37-ci il repressiyasına siyasi hazırlıq tədbirlərindən biri kimi sənətkara qarşı qurulan ədəbi məhkəmələr, Cavidi məhbəsə aparan yol professor C.Qasımovun "Ədəbi məhkəmələr"[7], "Məhbus tərcümeyi-halı"[8], "Cavidi məhbəsə aparan yol"[9] tədqiqatlarında öyrənilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** "Hüseyn Cavidin ədəbi məfkurəsi və sənəti dövrünün ədəbi, mədəni, ictimai kontekstində" adlı dissertasiyanın elmi yeniliyi aşağıdakı problemlərin araşdırılması və öyrənilməsi ilə müəyyənləşir:

– Cavidin ədəbi mühiti və müasirləri kompleks şəkildə araşdırılmış, uşaqlıq və yeniyetməlik dövrünü keçirdiyi Naxçıvan mühiti öyrənilmiş, bu dövrdə bir sıra əxlaqi-mənəvi keyfiyyətləri əxz etməsində rol oynamış faktorlar müəyyənləşdirilmişdir;

– Cavidin ədəbi mühiti və tərcümeyi-halı ən incə detallarınadək öyrənilmiş, şairin ömür yolunun bütöv elmi mənzərəsi yaradılmışdır;

–Böyük müasirləri: M.T.Sidqi, C.Məmmədquluzadə, Şeyx Məhəmməd (Rasizadə), Q.Şərifzadə, E.Sultanov, X.Haclarov və başqaları; M.Hüseyn, M.Quliyev, A.Şaiq, C.Cabbarlı, S.Vurğun, X.İbrahim və b. ilə əlaqələri arxiv sənədləri, dövri mətbuat materialları və xatirə ədəbiyyatı vasitəsi ilə tədqiq olunmuşdur.

– İlk dəfə olaraq Cavidin Türkiyə mətbuatında dərc olunmuş şeirləri araşdırılmış;

– Türkiyəyə gediş və dönüş tarixləri dəqiqləşdirilmiş;

[1] Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, 361 s.
[2] Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007, 840 s.
[3] Turan A. Hüseyn Cavid. Bakı: Vektor, 2007, 286 s.
[4] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010, 367 s.
[5] Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı: Elm, 1985, 120 s.
[6]Əliyev K.Hüseyn Cavidin şəxsiyyəti və poetikası.1997, 96 s.
[7] Qasımov C. Ədəbi məhkəmələr. Bakı:Zərdabi LTD MMC, 2012, 304 s.
[8] Qasımov C. Məhbus tərcümeyi-halı. Bakı: Səda, 2003, 180 s.
[9] Qasımov C.Cavidi məhbəsə aparan yol. Bakı:Elm, 2007, 191 s.

–Türk şairləri; R.Tevfik, T.Fikrət, Ə.Hamid, M.Akiflə yaradıcılıq əlaqələri, bu əlaqələrin Cavid yaradıcılığına təsiri öyrənilmiş, elmi qiymət verilmiş;

–Cavidin həyatı, ədəbi məfkurəsi və sənəti Sənətkar və Zaman müstəvisində öyrənilmiş;

–Dövrün ədəbi tənqidi və ictimai-siyasi mühitinin Cavidə münasibətinin obyektiv xarakteristikası müəyyən olunmuş;

–Ədibin bədii yaradıcılığı yenidən tədqiq edilib qiymətləndirilmiş;

–Görkəmli dövlət xadimi Heydər Əliyevin Hüseyn Cavid sənətinə münasibəti dəyərləndirilmiş;

–Bir sıra əsərlərindəki obrazların prototipləri, həyatdan və cəmiyyətdən gələn süjetlər və qəhrəmanlar tədqiqat obyektinə çevrilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti** Dissertasiyanın nəzəri əhəmiyyəti onun ehtiva etdiyi elmi müddəalarda və ümumiləşdirmələrdədir. Tədqiqatda irəli sürülən bir sıra təhlil prinsipləri; tekstoloji, bioqrafik metod və əldə olunan nəticələr gələcəkdə meydana çıxa biləcək bu tipli elmi işlər üçün faydalı ola bllər.

Ali təhsilin bakalavr və magistr pillələrini əhatə edən universitetlərdə, XX əsr Azərbaycan ədəbiyyatı və ədəbi əlaqələr fənlərinin tədrisində, habelə xüsusi kursların tədrisində elmi mənbə kimi dissertasiyaya istinad etmək olar.

**Tədqiqatın elmi-metodoloji əsası** Dissertasiyada mövzunun xarakterinə uyğun olaraq tarixi-ədəbi və nəzəri yanaşma və tekstoloji, bioqrafik metod prinsipinə əsaslanaraq müqayisəli və sistemli təhlildən istifadə olunmuşdur.

Tədqiqatın elmi-metodoloji əsasında görkəmli ədəbiyyatşünasların ümum-nəzəri əhəmiyyət kəsb edən fikirləri, Azərbaycan ədəbiyyatşünaslığının və Cavidşünaslığın əsas təhlil prinsipləri dayanır. Dissertasiyada yeri gəldikcə mövzu ilə bağlı bəzi mülahizləri əsaslandırmaq üçün Azərbaycan, Türkiyə və Qərb ədəbiyyatşünaslarının tədqiqat əsərlərinə də istinad edilir.

**Tədqiqatın aprobasiyası** Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Rəyasət Heyəti (11 yanvar 2008, protokol № 02 ) təsdiq edilmiş, 11 mart 2015-ci il AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin 3/5№ li qərarı ilə mövzunun adı dəyişdirilərək “Hüseyn Cavidin ədəbi mühiti və

müasirləri”, Azərbaycan Respublikası elmi Tədqiqatların Əlaqələndirmə Şurasının (11 iyun 2015-ci il, protokol № 5) qərarı ilə “Hüseyn Cavidin ədəbi məfkurəsi və sənəti dövrünün ədəbi, mədəni, ictimai mühiti kontekstində” adı ilə təsdiq edilmişdir.

Dissertasiya işi AMEA-nın Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Yeni dövr Azərbaycan ədəbiyyatı” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 4 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdlr. Hər fəsil özlüyündə, qoyulan problemin daha aydın həlli üçün bir neçə yarımfəsillə ayrılmışdır.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın “Giriş” hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, obyekt və predmeti, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti qeyd edilir, metodları və mənbələri göstərilir, aprobasiya və quruluşu haqq;nda məlumat verilir.

Dissertasiyanın **birinci fəsli “Hüseyn Cavidin dünyagörüşü-nün formalaşmasında ədəbi - ictimai mühitin rolu”** adlanır. Beş yarımfəsildən ibarət olan bu fəslin **birinci yarımfəsli “Naxçıvan ictimai, ədəbi-mədəni mühiti: 1860-1900-cu illər”** adlanır. XIX əsrin ikinci yarısında Yaxın və Orta Şərqin mədəniyyət beşiklərindən olan, zəngin tarixə, böyük mədəniyyətə və dövlətçilik ənənələrinə malik olan Naxçıvanın ictimai-siyasi və mədəni həyatında inkişafa doğru baş vermiş bir çox dəyişikliklər; 1892-ci ildə Ordubadda “Əxtər” məktəbinin yaradılması, Naxçıvanda yaradılan ilk qəza məktəbinin sonralar, üçsinifli şəhər rus-tatar – “Tərbiyə” məktəbi adlanması, Məhəmməd Tağı Sidqinin “Tərbiyə” məktəbində müdir və müəllim kimi fəaliyyət göstərməsi, sonralar elm, ədəbiyyat və mədəniyyət xadimləri kimi şöhrət qazanmış ziyalıların böyük bir nəslinin Sidqinin “Tərbiyə” məktəbində təhsil almaları, bu şagirdlərdən birinin sonralar dahi şair-dramaturq kimi, Cavid adı ilə məşhurlaşan Hüseyn Rasizadə olması kimi məsələlər tədqiq edilərək onun məhz belə zəngin ictimai-mədəni və maarifçi bir mühitin yetirməsi olması əsaslandırılıb.

**Birinci fəslin “Cavidin formalaşmasında ailə mühitinin rolu”**

adlanan **ikinci yarımfəslində** ədibin ailə mühiti, Azərbaycanda bir nəslə mənsub olan Rasizadə soyadının mənşəyi (Rasi-ərəbcə “risə” sözündən olub, mənası: kədər, kədərli nəğmə, elegiya, mərsiyə deməkdir. Rasizadə mərsiyəxan oğlu deməkdir. Bu soyadı ilk dəfə olaraq Cavidin atası Hacı Molla Abdulla götürmüş, sonra övladları davam etdirmişdir), Molla Abdulla Rasizadənin soy kökü araşdırılmış, Şahtaxtından olduğu əsaslandırılmış, Hacı Mola Abdullanın ailə mühitinə nəzər salınmışdır. “Müsəlman Şərqində məşhur olan”[1] “Şahtaxtılı” adı ilə tanınan Hacı Molla Abdullanın dövrünün şöhrətli insanlarından olması, Şamaxı, Təbriz mühitlərində “xoş səsi və gözəl moizələri ilə məşhur olması”, övladlarının dünya-görüşünün, bədii istedadlarının formalaşmasında, şeirə-sənətə meylin oyanmasında güclü təsiri olduğu müəyyənləşdirilir. İki dəfə evlənən Hacı Molla Abdullanın ailə vəziyyətinə, övladlarının; Fatimə, Xurşid, Ümmi Səlimə, Məhəmməd, Hüseyn, Əlirza (Ümmi Leyladan olan), Əhməd və Ələsgər (Töhfə xanımdan olan) təhsil məsələlərinə və məşquliyyətlərinə nəzər salınır. Qız övladları ali təhsil almasa da, Hacı Molla Abdullanın oğlanları: Şeyx Məhəmməd Tehranda, H.Cavid İstanbulda, Əlirza Rasizadə Qori Müəllimlər Seminariyasında təhsil alıb (Əlirza yaradıcılıqla məşğul olub, “Qisas” adlı dörd pərdəli dram yazması haqqında məlumat olsa da, əsər bizə gəlib çatmayıb. O, “Tazə həyat”da “Rasizadə Səyyah” (1907), “Məlumat”da (1911) “Əli Riza”, “Əxbar”da (1920) “Nadinc” imzaları ilə çıxış edib”[2], Molla Əhmədin (Əhməd yaşca Şeyx Məhəmməddən kiçik, Caviddən böyük olub) ruhani təhsili aldığı, atası Hacı Molla Abdulla kimi gözəl səsə malik olması və atasının Molla Əhmədi “rövzəxan etmək məqsədilə yanınca getdiyi məclislərə aparması [3] müəyyənləşdirilmiş, bəzi mənbələrdə, “Hüseynin gözəl səsə malik olması, atasının onu yanınca getdiyi məclislərə aparması” kimi həqiqətə uyğun olmayan məqamlara münasibət bildirilmişdir. Hacı Molla Abdullanın gözəl səsi olan övladının Molla Əhməd olduğu, Molla Əhmədin çox savadlı bir şəxs olması, Quranı mükəmməl bilməklə yanaşı, gözəl avazla oxuması, fars və rus dillərini bilməsi, ömrünün sonlarında Gəncədəki Şah

---

[1] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.18.
[2] Məmmədli Q. Əliyeva A. İmzalar. Bakı: Litterpress, 2015, s.209.
[3] Cavid M. Cavid haqqında xatirimdə qalanlar. Bakı:Vektor, 2005, s.38.

Abbas məscidində şeyxlik etdiyi müəyyənləşdirilmişdir.

Cavidin qardaşı Əlirzanın ixtisasca hüquqşünas olan həyat yoldaşı Səkinə Rasizadənin Abbas Zamanovun "Bu dünyadan Rəsul Rza gəlib keçdi" kitabında Cavidin bacısı kimi göstərilməsinə aydınlıq gətirilmiş, onun Əlirzanın həyat yoldaşı olması dəqiqləşdirilmişdir.

Hacı Molla Abdullanın bütün övladlarının (Ələsgər adlı oğlu isə çox gənc ikən vəfat edib) isdedalı və təhsilli olduğu, onların adlarının önündəki "Şeyx", "Molla", "Hacı" sözlərinin dini titul olmaqdan başqa, həm də biliklərinə, təhsillərinə işarə etdiyi, bunların içərisində Cavidin bir başqa yeri olduğu vurğulanır. Kiçik yaşlarından mollaxanada, sonra "Tərbiyə" məktəbində təhsil almış Cavidin İranda "Talibiyyə" mədrəsəsində oxumasına, Təbrizdə (1904), Urmiyədə yaşadığı dövrə nəzər salınmışdır. 1905-ci ildə İstanbula getmiş, İstanbul universitetində təhsil almış şairin Türkiyədən dönmə tarixi 1910-cu ilin əvvəlləri kimi müəyyənləşdirilmişdir.

Cavidin tez-tez Naxçıvana gəlməsi, ziyalılarla sıx əlaqədə olması, onlarla sənət və teatr haqqında söhbətlər etməsi, teatr tamaşalarına baxması, 1918-ci ilin Mart hadisəsindən sonra Bakıdan ayrılan şairin Ənzəliyə, oradan isə Təbrizə getməsinə, atasının yaxın dostu Hacı Məhəmməd Naxçıvani və Şeyx Məhəmməd Xiyabani ilə görüşməsinə, atasının dostu Hacı Məhəmməd Naxçıvaninin evində qalmasına, şairin "Təcəddüd" qəzetində şeirinin dərc edilməsinə münasibət bildirilir; "1941-1946-cı illər "Vətən yolu" adlı ordu qəzetində işlədiyim zaman Təbrizdə öz maarifçiliyi və ədəbiyyatşünaslığı ilə məşhur olan Hacı Məhəmməd Naxçıvani ilə tanış və dost oldum. O, Cavid haqqında deyərdi: "1918-ci ildə Hüseyn Cavid Təbrizə gəldi. Bir müddət bizim evdə qaldı. O vaxt Təbrizdə Şeyx Məhəmməd Xiyabaninin "Təcəddüd" qəzetində Cavidin şeiri çap edildi. O, bir qədər Təbrizdə qalıb Naxçıvana getdi. Hacı Məhəmməd bu barədə ətraflı söhbət etdikdən sonra "Təcəddüd"ün bir nüsxəsini mənə göstərdi. Həmin nömrədə Cavidin şeiri vardı. Məlum səbəblərə görə mən o nüsxəni alıb saxlaya bilmədim" [1] Cavid Təbrizdə olduğu zaman Bakıda onun ölməsi

---

[1] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s.114.

barədə şaiyələrin yer alması, Təbrizə köçməsi və məzkur şəhərdə maarıf müdiri təyin olunmasına münasibət bildirilir. 14 noyabrda Cavidin ölməsi xəbərini təkzib edən "Azərbaycan" qəzeti yazır: "Hüseyn Cavid bəy vətəni olan Naxçıvanda təəhhül edərək oradan Təbrizə köçmüş və məzkur şəhərdə maarıf müdiri təyin olunmuşdur." Hüseyn Cavidin maarif müdiri olması haqqında heç bir sənəd yoxdur. [1] Yarımfəsildə Cavidin 1918-ci ildə Təbrizdən Naxçıvana gəlməsi, burada "Rüşdiyyə" məktəbində dərs deməsi, Mişkinaz xanımla ailə qurması, "İblis" faciəsini Naxçıvanda yazmasına (bəzi mənbələrdə, ədibin "İblis"i 1919-cu ildə başlayıb, 1920-ci ildə bitirib"[2] yazılması fikirinə) münasibət bildirilir.

Həmçinin 1918-1919 illər Naxçıvanda olan şairin siyasi fəaliyyətinə nəzər salınır, Xəlil ağa Hacılarovla birlikdə Cavidin Naxçıvanın İrəvana birləşdirilməsinin qarşısının alınmasında xüsusi səy göstərməsi və buna nail olmasına, Kazım Qarabəkir Paşa ilə Hüseyn Cavid arasındakı səmimi dostluğun olması diqqətə çəkilərək Naxçıvanın ağır günlərində hadisələrin mərkəzində olan Cavidin 1919-cu ildə Bəhram xan Naxçıvanski ilə birlikdə Cənubi Qafqazın və Naxçıvanın siyasi-hərbi çıxarlarını müzakirə etmək üçün Bakıya xüsusi missiya ilə göndərilməsinin siyasi mahiyyət kəsb etdiyinin altı cızılır. Onun Kazım Qarabəkir Paşa ilə siyasi məsələləri müzakirə etməsi, "Naxçıvan camaatının bir deliqat kimi Cavid əfəndini seçmələri"[3] (Naxçıvan və Şərur məsələsinə dair) Cavidin Bakıya siyasi missiya ilə gəlməsini "gümandan həqiqətə" götürdüyü vurğulanır.

**Birinci fəslin üçüncü yarımfəsli "Cavidin dünyagörüşü: mədrəsə və məktəb təhsili müstəvisində"** adlanır. Bu yarımfəsildə mədrəsə təhsilinin balaca Hüseynin gələcək inkişafındakı roluna nəzər salınır. Hüseyn "Məktəbi-tərbiyə"yə daxil olanda artıq 14 yaşında idi. Mollaxanada oxuduğu illərdə o, ərəb, fars dillərini, Quranı, müsəlman əxlaq qaydalarını, Şərq ədəbiyyatını kifayət qədər öyrənmiş, müəyyən dünyagörüşə yiyələnmiş, Racinin təsiri ilə "Gülçin" təxəllüsü ilə ilk şeirlərini yazmışdı. Molla olmayacağına qərar vermiş, is-

---

[1] "Bəsirət" və "Azərbaycan" qəzetlərindəki məlumat Q. Məmmədlinin "Cavid-ömür boyu" salnaməsindən götürülüb. s, 98-99.
[2] Şaiq A. Xatirələrim. Bakı: Azərnəşr, 1961, s.205.
[3] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s.100.

rarla yeni tipli məktəbdə təhsilini davam etdirəcəyini müəyyənləşdirmişdir. Sonralar şairin yaradıcılığında əsas qayə kimi ortaya qoyduğu "Ədalət istərəm, yalnız ədalət!" – fikrinin əsası da bu zaman qoyulmuşdu.

Dissertasiyanın **"Həyat və fəaliyyətinin Naxçıvan mərhələsi"** adlanan **birinci fəslinin dördüncü yarımfəslində** Cavidin "Məktəbi-Tərbiyə"dəki təhsil illərinin (1894-1898), birbaşa böyük maarifpərvər M.T.Sidqi ilə tanışlığı və ata-oğul münasibətinin onun xarakterinin, dünyagörüşünün və təcrübəli bir pedaqoq, vətəndaş kimi formalaşmasında müəlliminin böyük roluna aydınlıq gətirilmiş, mütəfəkkir sənətkarın "atam"[1] dediyi müəllimi ilə müəllim-şagird münasibətləri ədəbiyyat baxımından müəllim-şagird yaradıcılıq əlaqələri səviyyəsində dəyərləndirilmişdir.

**Birinci fəslin "Hüseyn Rasizadə və kiçik müasirləri"** adlı **beşinci yarımfəsldə** şairin ibtidai məktəb mühiti və Hüseynin şagird yoldaşları ilə tanışlıq baxımından önəmi araşdırılmışdır. Çünki istər onunla, istərsə də digər siniflərdə oxuyan şagirdlər bütövlükdə, "ibtidai məktəbin maarifçi mühitinin müştərək iştirakçılarındandır"[2] Hüseyn Rasizadə "Məktəbi-tərbiyə"də tanış olduğu şagird yoldaşları arasında "özünün gələcək əməl və məslək dostlarını da seçib müəyyənləşdirmişdir"[3] Hüseynin "əməl və məslək dostları"nın içərisində sonralar yazıçı, şair, alim, publisist, sənətşünas, aktyor kimi tanınmış Əliqulu (Qəmküsar) və Rzaqulu Nəcəfovlar, Rza Təhmasib, pedaqoq Əli Səbri Qasımov, Məmmədəli Səfərov, Xəlil Hacılarov və s. kimi dəyərli insanlar vardı. Onlar "Tərbiyə" məktəbinin məzunları olmaqla yanaşı, həm də ardıcılları idilər. Cavid onların bir çoxu ilə ömrünün sonunadək ünsiyyət saxlamışdır.

Beləliklə, ibtidai təhsil mühiti Hüseyn Rasizadənin dünyagörüşünün formalaşmasında olduğu kimi, gələcək dostluqlarının ilk təməlinin atılmasında da önəmli olmuşdu.

Dissertasiyanın **"Hüseyn Cavid və maarifçi müasirləri Naxçıvan ədəbi-ictimai mühitində"** adlanan **ikinci fəsli** beş yarımfəsildən ibarətdir. Bu yarımfəsildə ədibin Naxçıvan ədəbi

---

[1] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.391.
[2] Həbibbəyli İ. C.Məmmədquluzadə. Mühüti və müasirləri. Bakı: Azərnəşr. 1997, s.61.
[3] Yenə orda, s.61.

mühiti və maarifçi müasirləri: Məmməd Tağı Sidqi, Qurbanəli Şərifzadə, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Xəlil ağa Hacılarovla əlaqələri araşdırılmışdır.

Azərbaycanın milli ziyalılığının imicini formalaşdıran "Məktəbi-tərbiyə" məzunu Hüseyn Cavidin müəllimindən aldığı estafeti şərəflə davam etdirməsinə, millətinin hər bir fərdinin oxumasına çalışan bir maarifpərvər kimi formalaşmasına nəzər salınmışdır. Şairin müalicə üçün getdiyi Kislovodskidən həyat yoldaşı Mişkinaz xanıma yazdığı məktubda; "Ərtoğrol Həlimənin də dərslərinə baxsın"[1] – deyə ona bərk-bərk tapşırması, onun oxumasına göstərdiyi qayğı, ümumilikdə, Cavidin maarifə münasibətini və millətə qayğısının sərhədlərini müəyyənləşdirir.

Yarımfəsildə, həmçinin Cavidin maarifçi müasirlərinə - Qurbanəli Şərifzadə, Məhəmməd Tağı Sidqi, Xəlil ağa Hacılarov, Eynəli bəy Sultanov və digərlərinə münasibətlərindəki maraqlı məqamlara da aydınlıq gətirilmişdir.

**"Qurbanəli Şərifzadə və Cavid"** adlı **ikinci fəslin ikinci yarımfəsinldə** ədibin tərcümeyi-halının bəzi məqamlarını dəqiqləşdirmək, bədii yaradıcılığının inkişaf mərhələlərni izləmək, qiymətləndirmək məqsədi ilə onun İstanbuldan Q.Şərifzadəyə yazdığı, maddi və mənəvi ehtiyaclarını bölüşdüyü məktublar incələnir. Cavidin Q.Çərifzadəyə yazdığı məktublardan təhsil almaq üçün maddi imkanının məhdudluğu ucbatından ticarətlə məşğul olub, əldə etdiyi vəsaitlə müxtəlif ədəbiyyat kitabları və mətbuat orqanları alıb oxuduğu, İstanbulun teatr həyatı və kitabxanaları haqqında məlumat verdiyi diqqətə çatdırılır. Qardaşı Əlirzadan, Şeyx Məhəmməddən və dostu Q.Şərifzadədən aldığı məktubların məzmunu, orada verilən bioqrafik informasiyalar təhlil edilir. İstanbulda olarkən Cavidin ən çox Şərifzadə ilə yazışdığı, onunla dərdləşib, sevincini və kədərini, siyasi və mədəni məsələlərə münasibətlərini bölüşdüyü diqqətə çatdırılmaqla yanaşı, Q.Şərifzadənin xatirəsini əziz tutub ona qədirşünaslıqla yanaşması Cavid şəxsiyyətinin bütövlüyü kimi mənalandırılır.

**"Hüseyn Cavid və Cəlil Məmmədquluzadə"** adlı **ikinci fəslin üçüncü yarımfəslində** eyni mühitin övladları olan Hüseyn Cavidin maarifçi müasiri Cəlil Məmmədquluzadə ilə münasibətləri

---

[1] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.43.

araşdırılmış, Cəlil Məmmədquluzadə ilə Hüseyn Cavidin arasında şəxsi münasibət olmamışdır, fikrinə aydınlıq gətirilmişdir. Bu iki böyük sənətkar arasında isti münasibət olmasa da, kəskin ixtilafın da olmadığı bildirilmişdir. Bu zaman Cəlil Məmmədquluzadənin "Xatiratım" əsərindəki bəzi məqamlara və bəzi tarixi faktlara əsaslanmışdır. Yarımfəsildə professor Əziz Şərifin gündəliyində yazdığı "Cavid bizimlə və başqaları ilə yalnız İsmayıl Həqqinin kontorunda, "Auditoriya"da, qiraətxanada, "Molla Nəsrəddin" redaksiyasında görüşər və mənim mənzilimə, ya da, Rzanın mənzilinə gələrdi"[1] – fikrinə münasibət bildirilir.

Belə bir fakta diqqət yetirilir ki, Cavid ilə Cəlil arasında şəxsi və ədəbi əlaqələrin yaranması üçün zəmin olmasa da onlar bir-birlərinin yazdıqlarına biganə qalmamışdılar. H.Cavid C.Məmmədquluzadənin "Ölülər"i haqqında yüksək fikir bəyan edərək yazmışdır: "Ölülər" sənətcə nə isə, məalca da odur." "Ölülər"də sənətkaranə bir dirilik, mahiranə bir incəlik var." "Ölülər"in hər təbəssümündən acı bir fəryad qopar"[2].

C.Məmmədquluzadə "Anamın kitabı" əsərinin mövzusunu ədibin – H.Cavidin ailəsindən almışdır, fikrinə 1918-1919-cu illərdə Naxçıvanda "Rüşdiyyə" məktəbində oxuyarkən İstanbulda təhsil almış Caviddən türk dili, Tehranda təhsil almış Şeyx Məhəmməddən ərəb dili, kiçik qardaşı, Qori Müəllimlər Seminariyasının məzunu Əlirzadan rus dili dərsi almış Lətif Hüseynzadənin xatirələrindən gətirilən aşağıdakı misalla aydınlaşdırılmışdır: "Bu insanlar müxtəlif yerlərdə, müxtəlif dillərdə təhsil almalarına baxmayaraq, öz ana dilində danışırdılar. Ailələrində əgər onlardan biri təhsil aldığı dilin kəlmələrini təsadüfən işlədərdilərsə, anaları tez onlara xatırladardı – "Ananızın dilində danışın!"

Yarımfəsildə, bu iki sənətkarın yaradıcılığındakı bənzərlikləri araşdırmaq üçün onların dram əsərləri nəzərdən keçirilir və bir çox oxşar məqamlar diqqətə çəkilir; "Ölülər" – "Şeyx Sənan" – "Dəli yığıncağı" – "İblis", "Maral" – "Danabaş kəndinin əhvalatları" – "Peyğəmbər" – "Xəyyam" əsərləri, İskəndər – Şeyx Sənan – Dərviş, Maral – Zeynəb obrazlarındakı bənzərliklər bunun bariz nümunələri kimi dəyərləndirilir. H.Cavidlə C.Məmmədquluzadənin yaradıcılı-

[1] Şərif Ə.Keçmiş günlər.Bakı, Yazıçı, 1986, s. 67.
[2] Cavid H. "Ölülər" haqqında təəssürat // Tuti. 1916, №1, s,1.

ğındakı cəhalətə, xurafata qarşı mübarizə, qadın azadlığı, erməni terroru və erməni kilsəsinin propaqandası, din və dəlilik, "Şeyx Sənan" və "Ölülər"də əsas xətt kimi keçən "ölü canlar", "canlı cənazə" məsələlərinə paralelliklər aparılaraq nümunələr əsasında münasibət bildirilir. Caviddəki "Dəlilik başqa bir fəzilətdir", "Dinsiz olmaq da bir təriqətdir"[1] - fikrinə Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" əsərində daha geniş şəkildə işıq tutulduğu, onların ortaq cəhətlərindən birinin də maarifçilik məfkurəsinin daşıyıcıları olmaları, maarif, məktəb məsələsini önə çəkmələri vurğulanır.

**Hüseyn Cavid və Şeyx Məhəmməd Rasizadə** adlı **ikinci fəslin dördüncü yarımfəslində** Hüseyn Rasizadənin Cavidləşməsində keçən əsrin əvvəllərində qardaşı Cavidi Türkiyəyə oxumağa göndərmiş və maddi qayğılarının bir qismini öz üzərinə götürmüş qardaşı Şeyx Məhəmmədin rolu araşdırılmışdır.

Cavidin hələ 1910-cu ildə İstanbuldan yazdığı məktubunda Şeyx Məhəmməddən "fəzilətpərvər qardaşım" – deyə ehtiramla bəhs etməsi Şeyx Məhəmmədi bir şəxsiyyət olaraq xarakterizə edir. Ruhani təhsili alıb "Şeyx" titulunu qazanan Şeyx Məhəmməd 1906-cı ilin yanvarından ömrünün axırınadək Naxçıvanda "Məktəbi-xeyriyyə"də müəllimliklə məşğul olmuşdur. Ədəbiyyatşünas Əli Sultanlı Şeyxin bu xüsusiyyətini önə çəkərək yazır: "Cavidin böyük qardaşı Məhəmməd Rasizadə mükəmməl təhsil görmüş bir vaiz idi. Vaizlikdən də ziyadə müəllimlik və mühərrirliklə məşğul idi"[2].

Qeyd edək ki, Şeyx Məhəmməd Naxçıvanda müxtəlif orta məktəblərdə, pedoqoji və kənd təsərrüfatı texnikumlarında bir sıra görkəmli şəxsiyyətlərin: siyasi lider Heydər Əliyev, akademiklər: Yusif Məmmədəliyev, Məmməd Cəfər Cəfərov, Həsən Əliyevin, Lətif Hüseynzadə, İzzət Maqsudov kimi alimlərin, yazıçı Əyyub Abbasovun, ziyalı qadınlarımızdan Zərqələm, Şəmsinur, Zəroş Həmzəyevanın müəllimi olmuş Şeyx Məhəmmədin tələbkarlığını Heydər Əliyev belə xatırlayır: "Xatirimdədir, çox ciddi müəllim idi. Bizi yaman sıxışdırardı. Amma dili də çox yaxşı öyrədirdi"[3].

---

[1] Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007, s. 41.

[2] Cavidi xatirlarkən: Hüseyn Cavidə həsr olunmuş məqalələr və xatirələr.Bakı: Gənclik, 1982, s. 174.

[3] Azərbaycan KP MK –də Hüseyn Cavidin anadan olmasının 100 illliyi haqqında qərar qəbul edilmişdir / Naxçıvan. İctimai, siyasi, ədəbi-bədii, elmi publisistik jurnal., Nax.MR. Ali Məclisinin orqanı. 2007, №16, s, 12-14.

Müəllim, şair, jurnalist olan Şeyx Məhəmməd hər şeydən öncə vətənini sevən əsl vətəndaş kimi tanınmışdır. Tədqiq və Tətəbbö Cəmiyyəti Naxçıvan şöbəsinin tarix, ədəbiyyat bölməsinə rəhbərlik etmiş, Naxçıvan tarixinin araşdırılmasında böyük xidmətləri olmuşdur. Filologiya üzrə elmləri doktoru Fərman Xəlilovun "Naxçıvanı öyrənən elmi cəmiyyət"[1] kitabında Şeyx Məhəmmədin adına tez-tez rast gəlinir. Bu cəmiyyətin iclas protokollarından məlum olur ki, 1930-cu ildə o, "Şərur dairəsinə səyahət haqda qeydlər" adlı yazı yazmış, "Dillərin tülu və qürubu" mövzusunda məruzə etmiş, tələbələri ilə birlikdə çoxlu folklor nümunəsi toplamışdır. Qardaşı Cavid Bakıda tənqidə məruz qalanda, Şeyx üçün də Naxçıvanda təziqlər başlamış, 1933-cü ildə "Şeyx Məhəmməd tələbələr arasında təbliğat işini yaxşı aparmadığına, ola bilsin ki, məqsədli, pozucu şəkildə apardığına görə siyasi ittihamla işdən azad edilərək"[2] ağır zillətə məhkum olunmuş, amma qardaşına da söz dedirtməmişdir. Şeyxin oğlu Hamid Rasizadə yazır ki, "vaxtı ilə atamın şagirdi olmuş Naxçıvan ziyalılarından biri Əkbər Əkbərov söhbətlərimizdən birində dedi: - "O zaman Bakıda olduğu kimi Naxçıvanda da ifşa yığıncaqları keçirilirdi. Belə yığıncaqların birində Şeyx Məhəmməd müəllimə də söz verdilər ki, çıxış edib "xalq düşməni" olan qardaşını ifşa etsin. O, xitabət kürsüsünə qalxaraq 10-15 dəqiqə Cavidin yaradıcılığından, onun əsərlərindən danışdı, bir az sonra dedi: "Nə deyim, hamısını düz yazmışdır. - Salona sükut çökdü, o keçib yerində oturdu"[3].

Yarımfəsildə, Şeyx Məhəmmədin də sovetlərin qəzəbinə tuş gəlməsinə, qardaşı Cavidə görə başına gətirilən fəlakətlərə aydınlıq gətirilib. Onun təlatümlü keçən illərinə - gah işdən çıxarılıb, gah da iş otağının əlindən alınmasına, lazımı yerlərə məktub yazmasına münasibət bildirilib.

**Hüseyn Cavid və Eynəli bəy Sultanov** adlı **ikinci fəslin beşinci yarımfəslində** yazıçı, nasir, publisist, ictimai xadim Eynəli bəy Sultanovun Naxçıvanda maarif və mədəniyyətin tərəqqisindəki xidmətləri və Cavidlə münasibətləri aydınlaşdırılır. Göstərilir ki,

---

[1] Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət. Bakı: Nurlan, 1995. 196 s

[2] Cəfərov M. Xatirələr. Bakı: Çaşıoğlu, 2010, s.175.

[3] Rasizadə H. Şeyx Məhəmməd Rasizadə və ya atam haqqında xatirimdə qalanlar. "İki sahil" qəz., 1997, 3 iyul.

1882-ci ildə Naxçıvanda öz evində "Ziyalılar cəmiyyəti" təşkil edib, qabaqcıl dünyagörüşlü insanlarla, oxumuş gənclərlə əlaqə saxlayan Eynəli bəy Sultanov şəhərin bütün tərəqqipərvər adamlarını: Paşa ağa Sultanov (1849-1902), Mirzə Cəlil Mirzəyev (Şürbi) (1874-1915), Mirzə Ələkbər Xəlilov (1862-1896), Əsəd ağa Kəngərli, Qurbanəli Şərifov (1854-1917), Baxşəli ağa Şahtaxtlı, Nəsrulla Şeyxov (1863-1921) və digərlərini cəmiyyətə cəlb edib. Cəmiyyətdə dövrün mühim əhəmiyyət kəsb edən ictimai-siyasi məsələləri müzakirəyə cəlb olunur, kitabxanalar açmaq üçün qərarlar alınır, elmi-ədəbi mübahisələr aparılır, Puşkin, Tolstoy, Belinski, Dobrolyubov kimi görkəmli yazıçı və şairlərin əsərləri gətirilib burada oxunur, tərcümə edilir, bir sözlə xalqı "cəhalət uyqusundan" oyatmaq üçün cəmiyyətin nümayəndələri əllərindən gələni edirlər. "Mədəni-maarif tədbirlərinin əsas təşkilatçısı, mütərəqqi ziyalılar dəstəsinin ilk müəllimi və tərbiyəçisi"[1] olan "Eynəli bəy Sultanovun təşkilatçılığı sayəsində Naxçıvanda "Ziyalı məclisi" ilə yanaşı, "Müsəlman dram cəmiyyəti" də yaradılmışdı ki, bu cəmiyyətlər "Naxçıvanda maarifçı ziyalıların yetişib formalaşmasında, ictimai-mədəni tərəqqinin daha sürətli inkişafında müsbət rol oynamışdır"[2] Bu işdə ona şəhərin tərəqqipərvər adamları köməklik göstərsələr də, ruhanilər və hökumət məmurları yaxşı münasibət bəsləməmiş, onlara əngəl olmağa çalışmışdılar. Belə bir çətin şəraitdə Naxçıvanda ilk mədəni tədbirlərin həyata keçirilməsinə nail olan Eynəli bəyin fəaliyyəti müasiri C.Məmmədquluzadəyə sözün əsl mənasında "qol-qanad", kiçik müasiri Hüseyn Rasizadəyə stimul vermişdi. Hüseyn Cavid xalqının tərəqqisi naminə bütün bacarığını və səyini ortaya qoyan Eynəli bəy Sultanova həmyerlisi, həmfikri və müasiri olaraq daim ehtiram və rəğbət bəsləmiş, İstanbuldan Naxçıvana, Qurbanəli Şərifzadəyə göndərdiyi məktubunda Eynəli bəy Sultanova "məxsusi" salam göndərmişdi.

Dissertasiyanın **"Hüseyn Cavidin sənəti dövrün ədəbi-ictimai mühiti kontekstində"** adlanan **üçüncü fəslin "Hüseyn Cavidin ədəbi tərcümeyi-halının Cənubi Azərbay-can mərhələsi"** adlı **birinci yarımfəslində** ədibin həyatının Cənubi Azərbaycan dövrü tədqiq edilir.

---

[1] Şərif Ə. Keçmiş günlər. Bakı:Yazıçı, 1986, s.6.
[2] Həbibov İ. Ədəbi yüksəliş. Bakı: Yazıçı, 1985, s.29.

Cavidin həyatının bu mərhələsindən elmi ədəbiyyatda ilk dəfə akademik Məmməd Cəfər Cəfərov “Hüseyn Cavid” [1] monoqrafiyasında bəhs edib. Ədibin həyatının bu dövrünə aid materiallar Qulam Məmmədlinin “Cavid ömrü boyu” [2] - salnaməsində də öz əksini tapıb.

1898-ci ildə Cənubi Azərbaycana gedən Hüseyn ömrünün bir neçə ilini Təbrizdə keçirimiş, “Talibiyyə” mədrəsəsində təhsil almış, 1903-cü ildə  Urmiyəyə gəlmiş 1904-cü ilin yay aylarınadək burada yaşamışdır. Bu barədə Cavid 1903-cü ildə müəllimi M.T.Sidqiyə yazmışdı: “...Rəbiəl-əvvəl ayının 13-də Urmiyə gəldim. Bu şəhərdə mənə şadlıq üz verdi... Urmini İranın şəhərləri ilə müqayisə etmək olmaz. Bu şən şəhər Azərbaycanın şəhərlərinə xüsusilə  oxşayır. Bu şəhərin İranın şəhərlərinə dəxli yoxdur”[3]

Cavidin məktublarına əsaslanaraq bu dövrdə, tam bir müstəmləkə vəziyyətində olan İranın siyasi vəziyyətinə, Sidqiyə yazdığı məktubunda imperialist dövlətlərinin burada törətdikləri rəzalətlərə mənfi münasibətinə,  “ingilis və rus kilsələri zənglərinin gurultusunun müsəlmanların və iranlıların azan səslərinə üstün gəlməsinə”[4], “Dilguşa” bağını ələ alan ingilislərin burada “kilsəyə bənzər möhkəm qalalar çəkməsinə, bir sözlə İranın ictimai-siyasi vəziyyətinə və mətbuatla yaxından maraqlanmasına, burada “İran”, “İttila”, “Nasiri”, “Şərqi-Rus”, “Tərcüman”, xüsusən də, İranın mütərəqqi ruhlu “Nasiri”, ictimai, siyasi həftəlik qəzet olan “Həblül-mətin”, inqilabi ruhlu “Sürəyya” kimi qəzetləri alıb oxumasına, rus dili ilə maraqlanmasına, İranın demokratik ruhlu mətbuatının şairin dünyagörüşünə səmərəli təsir göstərməsinə aydınlıq gətirilir. Çavidin burada təhsillə yanaşı, yaradıcılıqla da məşğul olduğu, “Şərqi-Rus” qəzetinə şeir və məktub göndərdiyi müəyyənləşdirilir. Göstərilir ki, Cavidin Cənubi Azərbaycan dövrünün tədqiqi mühim əhəmiyyət kəsb edir.

**Üçüncü fəslin “Cavid və Türkiyə ədəbi-maarifçi mühiti“** adlı **ikinci yarımfəsildə** Hüseyn Cavidin turançı, türkçü kimi

---

[1] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, 262 s.

[2] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, 294 s.

[3] Cavid H. Əsərləri. 5 cilddə I c., Bakı: Elm, 2007, s.221.

[4] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.221.

formalaşmasında təhsil aldığı İstanbul mühitinin (1905-1910) təsiri, təəssüratları araşdırılır. Ədibin Türkiyədəki həyat və fəaliyyəti dostu Qurbanəli Şərifzadəyə yazdığı məktublar əsasında təhlil və təqdim edilir.

Məktublarında şairin ömrünün dörd-beş ili Türkiyənin "qaynar və mürəkkəb" bir dövrünə düşdüyü, İstanbulda özünəməxsus mühiti olan Validəxan mühiti, Validəxanda Cənubi Azərbaycan inqilabçıları ilə; Ömər Naci, Mirzə Məmmədəlixan, Səid Səlmasi, Səvfətlə görüşu, yaxından əlaqə saxlaması, "Məhəmmədəli Tərbiyət, Səid Səlmasinin Hüseyn Cavid İstanbulda görüşdükləri və bu "sıralarda Rza Tevfikdən xüsusi dərslər almaları"[1], bu mühitdə "mədəniyyət və hürriyyətin qızğın mübarizləri"; Hacı Baba ağa, Ağa Zeynal Məmmədov, Məmmədəli Tərbiyyət, Səid Səlmasinin ona müsbət təsiri, "Həblül-mətin, "Molla Həsirəddin", "İrşad", "Pərvəriş", "Sürəyya", "Sirat-ül-müstəqim" kimi bir çox qəzet və jurnallarla maraqlandığı, mətbuat vasitəsi ilə dünyada baş verən hadisələrdən xəbər tutduğu, göndərildiyi ticarət şirkətinin İstanbul şöbəsi iflas etdikdən sonra geriyə dönməyib, mükəmməl təhsil almaq arzusu ilə İstanbulda qalmasına aydınlıq gətirilir. Cavidin universitetə girməsində Türkiyənin məşhur filosofu Rza Tevfikin roluna, onun universitetə birbaşa Bölükbaşının özünün hazırlaması və İstanbul universitetinə məhz Rza Tevfikin təqdimatı ilə qəbul olunmasına, Rza Tevfikin onun üçün hər zaman "ustadi-möhtərəm"[2] olaraq qalmasına münasibət bildirilir.

Yarımfəsildə, həmçinin şairin Türkiyə ədəbi-mədəni mühitinə yaxınlaşmasına, şairin "bütün yaradıcılığının dünyagörüşünün bu mühitin sürəkli təsiri ilə formalaşmasına"[3], tələbə ikən Məhmət Akifin redaktoru olduğu "Sırat-i müstakim" jurnalında "Yadi-mazi"[4], "Elmi - bəşər"[5], "Son baharda"[1] şeirlərinin dərc edilməsinə,

---

[1]Akpınar Y. Azeri ədəbiyyatı araşdırmaları. İstanbul: Dərgah yayınları, 1994

[2] Şərif Ə. Keçmiş günlər. Bakı:Yazıçı, 1986, s.54.

[3] Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, s. 332.

[4]Cavid H. "Yadi mazi"/ Sırat-ı Müstakim, 19 Mart 1325, № 32, (1 Nisan, 1909), s. 85-86.

[5] Cavid H. "İlmi - Beşer"/ Sırat-ı Müstakim, 27 Ağustos 1325, № 53, (9 Eylül, 1909), s.7.

İstanbulda yaradıcılıqla məşqul olmasına, ədibin elmi tərcümeyi-halında qaranlıq məqamlardan olan İstanbuldan neçənci ildə vətənə dönməsi məsələsinə şairin İstanbuldan yazdığı 14 iyun 1909-cu il tarixli məktubunda yazılan "marta qədər Qafqasyayı ziyarət edəcəyim"[2] – sözlərinə istinad edilərək (məktub 1909-cu il 14 iyun ayında yazılıb) aydınlıq gətirilmişdir.

İstanbuldan yazdığı 14 iyun 1909-cu il tarixli məktubundakı "marta qədər Qafqasyayı ziyarət edəcəyim"[3] – sözləri əsas tutularaq Hüseyn Cavidin vətənə dönüşü 1910-cu ilin əvvəlləri kimi müəyyənləşdirilmişdir.

Şairin şeirlərinin yalnız orada yaşadığı illərdə deyil ("Sirat-i müstəqim") Türkiyədən döndükdən sonra da İstanbul mətbuatında dərc edilməsindən; Abdullah Cevdətin "İctihad" məcmuəsində, "Küçük sərsəri" şeiri "Kafkasyalı Hüseyn Cavid" imzasıyla (1913, 14 yanvar)"[4], "Bahar şəbnəmləri" kitabında yer alan iki şeiri isə, Cəlal Nuri tərəfindən İstanbulda yayınlanan "Edebiyati-Umumiyye" məcmuəsində "Pənbə çarşaf" (1918) şeiri "Çarşaf" başlığıyla"[5], "Çəkinmə, gül"[6], "Nəcm-i Geysudar"[7] şeiri isə Türkiyə Cümhuriyyətinin elan olunmasından az sonra "Muhacirət Mətbuatının ilki olan "Yeni Kafkasya"da[8] (1923-1929) nəşr edilməsindən və Cavidin "Bahar şəbnəmləri" kitabının İstanbula necə gətirilməsindən bəhs edilmişdir.

Beləliklə, Cavidin şair və mütəfəkkir kimi formalaşmasında Türkiyə ədəbi maarifçi mühitinin rolu və Türk romantikləri ilə qarşılıqlı münasibətləri, İstanbul universitetində təhsil alması, taleyində Rza Tevfik Bölükbaşı amili araşdırılmış, türk

---

[1] Cavid H. "Sonbaharda"/Sırat-ı Müstakim, 14 Mayıs 1325, № 38, (27 Mayıs, 1909), s. 180-181.

[2] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.327.

[3] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.327.

[4] Kafkasyalı H. C. "Küçük serseri"/İctihad, I Teşrin-i sani 1328, № 34 (14 Ocak 1913), s. 901.

[5] Cavid H. "Çarşaf"/ Edebiyat-ı Umumiyye, 1 Haziran 1918, № 39, s, 754

[6] Cavid H. "Çekinme, gül"/ Yeni Kafkasya, İstanbul, 1923.

[7] Cavid H. "Necm-i Geysudar" / Yeni Kafkasya, 1 Ocak 1923, № 5 (I Kanun-i əvvəl 1339), s, 8.9.

[8] Gəncəli M. Hüseyin Cavidin İstanbul Məktubları və Osmanlı Mətbuatında "Cavid" İmzası / Türk kültürü incələmələri dərgisi. İstanbul 2014, №31, s. 239-264.

romantizminin tanınmış nümayəndələrinin yaradıcılığı ilə təmasları sənədlər və materiallar əsasında öyrənilmiş, bir çox şeirlərin altına yazılan qeydlər diqqətə alınaraq bu poetik nümunələrin İstanbulda yazıldığı və gənc Cavidin Türkiyədə yalnız “Sirat-i-Müstakim”də deyil, “İctihad”, “Edebiyat-ı Umumiye”, “Yeni Kafkasya”, “Yeni Mecmua”da iştirak etməsi faktı təsdiq edilmişdir.

**Üçüncü fəslin “Cavid və Türk romantikləri”** adlanan **üçüncü yarımfəslində** şairin yaradıcılıq yolunun müəyyənləşməsinin bütün türk dünyasının milli oyanışı, özünüdərki, müstəmləkə və despotizmə qarşı kəskin etirazı dövrünə təsadüf etdiyi fikri araşdırılmışdır. Bu zaman H.Cavidin yaradıcılığı türk romantikləri ilə qarşılaşdırılıb, müqayisələr aparılmışdır.

Cavidin İstanbul dövrü Osmanlı Türkiyəsinin ən ziddiyyətli anlarına düşüb. Bu dövr ictimai-siyasi vəziyyəti ilə yanaşı, Türkiyə ədəbiyyatı da müxtəlif meyil və istiqamətləri ilə səciyyələnirdi. Göstərilir ki, Cavidin yaradıcılığındakı bəzi cəhətlər də məhz həmin müxtəlif meyil və istiqamətlərin təsirindən; “Tənzimat”, “Sərvəti-fünun”dan gəlmə idi.

Türk ədəbiyyatının yeni məzmun və formada inkişaf etməsində böyük rol oynamış, türk ziyalılarının çox şey əxz etdiyi “Tənzimat” və “Sərvəti-fünun” ədəbi cərəyanlarının türk cəmiyyətinə olduğu kimi, Cavidin də dil və üslubunun, estetik ideallarının, ədəbi zövqünün formalaşmasındakı roluna aydınlıq gətirilmişdir. Yaradıcılıq kredosunu “Mənim tanrım gözəllikdir, sevgidir” - şəklində bəyan edən şairin dünyagörüşündə formalaşmış, əsərlərində əks olunmuş bu prinsipin ədəbi mühitdə və əsərlərindəki əks-sədası diqqət mərkəzinə çəkilmişdir. Bu qənaətə gəlinmişdir ki, Cavidin yaradıcılığı ilə türk romantiklərinin əsərləri arasında müəyyən bənzərliklər olsa da, fərqli və fərdi özünəməxsusluqları onu qüdrətli, orijinal sənətkar səviyyəsinə yüksəltmişdir.

**Üçüncü fəslin “Hüseyn Cavidin həyatı və ədəbi-mədəni fəaliyyətində Gəncə və Tiflis mühitinin yeri”** adlanan **dördüncü yarımfəslndə** ədibin həyatının bir müddət fəaliyyət göstərdiyi Gəncə və Tiflis dövrü araşdırılmışdır.

Türkiyədən Naxçıvana qayıdıb özünə iş axtaran Cavid bir səyyah kimi, Azərbaycanı gəzib dolaşıb. 1910-cu ilin ortalarından 1911-ci ilin sonlarınadək əvvəlcə Bakıda İran səfirliyi tərəfindən iranlılar üçün yaradılmış “İttihad” məktəbində il yarım çalışıb, sonra Gəncəyə

gəlib dostu Abdulla Surun vasitəsiylə "Mədrəseyi-ruhaniyyə"yə müəllim düzələn Cavid burada Abdulla Sur, Mirzə Abbas Abbaszadə, İdris Axundzadə, Rza Zəki, Həmid bəy Yusifbəyzadə, İsmayıl Faiq, Akif Səfvət kimi dövrün qabaqcıl müəllimləri ilə birlikdə çalışıb. Burada çalışmaq Cavidi məmnun etsə də, dostu Abdulla Surun vəfatından və "Mədrəseyi-ruhaniyyə"nin bağlanması səbəbindən bu səadəti uzun sürməyib. İşsiz qalan müəllimlər müxtəlif məktəblərə getmək məcburiyyətində qalıb. H.Cavidin 1912-ci ilin yanvar ayından iyulun axırınadək Gəncədə yaşaması, Pişnamazzadənin "Mədrəseyi - ruhaniyyə"sində az müddət müəllimlik etməsi haqda akademik Məmməd Cəfər yazır ki, "1912-ci ilin axırlarında Cavid yenə bir daimi iş yeri tapmaq məqsədilə Gəncəyə gedir. Burada bir neçə aylığa müəllimlik yeri tapsa da, az sonra işdən çıxarılmışdır. Əlacsız qalmış Cavid bir müddət Gəncə dəmir yolunda mühasiblik etməyə məcbur olmuşdur"[1]. Cavidin bir müddət Gəncədə dəmir yolu idarəsində mühasib işlədiyini Hənəfi Zeynallı da bir məqaləsində qeyd edib. Məktəb bağlananda Cavidin Tiflisdə olması, Gəncəyə qayıtmayıb özünə Tiflisdə iş axtarması, Qori semnariyasında təhsil alan həmyerlisi Əli Səbri Qasımova məktub yazaraq "Firidun bəyə de ki, mən Tiflisə gəlmişəm, işsizəm!"[2] – deyə ricada bulunması, məktub Firidun bəyə çatan kimi, Firidun bəy Köçərlinin Tiflisə gəlib, şairi Tiflisdəki şiə məktəbinə müəllim düzəltməsi faktı diqqətə çatdırılıb.

Cavidin İttifaq məktəbində işləməsi də az sürüb; bu məktəb də bağlandığından şair yenidən işsiz qalıb. Şair burada şsizlik problemi yaşasa da, Tiflis dövrü onu yaradıcılığında uğurlu olub, 1913-cü ilin may ayında ilk şeirlər kitabı; "Keçmiş günlər" İsmayıl Həqqinin "Şərq" mətbəəsində, "Ana" dramını isə Gürcü şirkətində (öz xərci ilə) çap olunub. Şair hər iki kitabına xüsusi bir mülahizə yazıb əlavə edib ki, bu "mülahizə"lərin yazılması yeni idi.

Cavid "Şeyx Sənan" faciəsini də Tiflisdə yazmışdır. Yarımfəsildə Ə.Şərifin "Cavid "Şeyx Sənan" mövzusu ilə 1914-cü ilin birinci yarısından etibarən maraqlanmağa başlamışdı"[3] - fikrinə

---

[1] Cəfərov C. M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.64.
[2] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s.29.
[3] Şərif Ə. Keçmiş günlər.Bakı: Yazıçı,1982, s.94.

də münasibət bildirilmişdir. Şairin mövzu ilə 1910-cu ildən maraqlandığını, dostu Abdulla Şaiqə yazdığı məktubda (1910, 14 sentyabr) ondan "Mümkün olsa "Tarixi-İslamiyyətin" ikinci cildini poçta vasitəsi ilə (Tiflis, Şeytanbazar, altıncı uçastok, Məşədi Ələsgər Bağırov Naxçıvani) adresinə göndərin və Rasizadə Hüseyn Cavidə verilməsini də ayrıca qeyd edin" [1] – deyə bir ricada bulunduğuna əsaslanaraq şairin bu mövzu ətrafında 1910-cu ildən düşündüyü, bu mövzuda yazılan bütün əsərlərdən; Fəridəddin Əttarın "Məntıqi-teyr"[2], Əlişir Nəvainin "Qisseyi Sənan", Mostarlı Ziyainin "Şeyx Sənan[3] məsnəvisindən, Gülşəhrinin "Dastani-Abdurrəzzaq" əsərindən xəbərdar olduğu vurğulanır.

Elmi fikir "Şeyx Sənan" mövzusunun bir müddət ərəb folklorunda dolaşdıqdan sonra səlib yürüşləri dövründə yaranmış, "Töhfətül-mülk" risaləsi vasitəsi ilə ilk dəfə yazılı ədəbiyyata gətirildiyini təsdiqləyir"[4]

Mövzuya ilk Şeyx Fərıdəddin Əttar müraciət etsə də bu mövzuda xeyli əsərlər yazılıb, Şeyx Sənan ismi tez-tez zikr edilib. Cavid "Şeyx Sənan" faciəsini yazarkən ədibin diqqətini yalnız "Tiflisdəki avam camaatın ziyarətgahı" olan Şeyx Sənan dağı cəlb etməyib.[5] O, dillərdə dolaşan əfsanənin qəhrəmanı "möhtəşəm zatın" tarixini araşdırmağa, onun haradan gəldiyini öyrənməyə qoşulub", yəni Şeyx Sənanla bağlı demək olar ki, bütün mənbələrlə tanış olan ədibin marağını Tiflisdə dəfələrlə ziyarət etdiy Şeyx Sənan dağı, gürcü məhəlləsindəki Şeyx Sənan küçəsi də cəlb edib. Bu məsələyə aydınlıq gətirmək üçün C.Məmmədquluzadənin bu barədəki fikirlərinə istinad edilir: "Tiflisdə gürcü məhəlləsində "Şeyx Sənan" küçəsində olurdum. Rusca həmin küçənin adı Davud küçəsi idi. Çünki xaçpərəstlər istilahında müqəddəs Davud – Şeyx Sənan deməkdir. Bizim məhəllə dağ ətəyində idi və bizdən yuxarı dağın şəhərə enən tərəfində müqəddəs Davudun məbədgahı da var

---

[1] Şərif Ə. Keçmiş günlər.Bakı: Yazıçı,1982, s.94.
[2] Əttar F. Məntıqi – teyr (çev. Əbdülbaki Gölpınarlı). İstanbul: Milli eğitim Basımevi, 1968.
[3] Mostarlı Ziyai. Şeyx Sənan məsnəvisi (hazırlayan: Müberra Gürgendərəli), İstanbul: Kitabevi Yayınları, 2007.
[4] Əkbərov Z. "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, 148 s.
[5] Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 80 – 106.

idi. Şeyx Sənanın gürcü qızına aşiq olduğu yer həmin yerdir[1]"

Göstərilən faktlardan belə qənaətə gəlinir ki, "onu büsbütün təzyiqi altına alan bir ruhani, dindar, sufiyanə mühit və digər tərəfdən müvəqqəti də olsa belə ticarət mühiti Cavidi gəzdirə-gəzdirə Qafqazın ən gözəl şəhərində – Şeyx Sənan dağı qarşısında saxlamağı"[2] təsadüf deyil, tale məsələsi imiş. İbn Xəldun yazır ki, "coğrafiya taledir." O zaman Cavidin "molla, rövzəxan oğlu, şeyxin kiçik qardaşı, sufiyanə, xəlqi ruhunda şeirlər söyləyən filosof Rza Tevfik şagirdi və İstanbul kimi o zamankı dindar bir darülfunun dəsti-pərvərdəsi olaraq Tiflisə gəlməsi də tale"[3] məsələsi imiş.

1910-cu ildən "Şeyx Sənan" mövzusu ətrafında düşünməyə başlayan Cavid 1914-cü ildə əsəri tamamlayıb. Həmin ilin oktyabr ayında Türkiyə ilə Rusiya arasında müharibənin başlanması səbəbindən Türkiyə sərhədində olan Zaqafqaziya şəhərlərində, həmçinin Tiflisdə böyük həyacanlar yaşandığından H.Cavid Kaxetiyaya gedib və qısa müddətdə burada dəmir yolu işçilərinin qeydiyyatını aparıb (tabelçi), sonra isə "Kaxetiyadan müalicə olunmaq üçün Yesentukiyə gəlib"[4] Şəhər həyatından uzaqlaşmağı arzu edən şair əvvəl Gürcüaniyə, sonra 1914-ci ilin sonlarında birdəfəlik Tiflisdən (Tibilisi) Bakıya köçsə də, Tiflis mühiti və burada görüşdüyü ziyalılarla səmimi münasibəti Cavidin ədəbi görüşlərinin formalaşmasında və sonrakı yaradıcılıq aurasının müəyyənləşməsində əhəmiyyətli olub.

**"Cavid yaradıcılığı Bakı ədəbi mühitində (1915-1937)" adlı üçüncü fəslin beşinci yarımfəslində** mütəfəkkir sənətkarın həyat və fəaliyyətinin Bakı dövrü araşdırılır.

1914-cü ilin sonlarında Tiflisdən Bakıya köçən Hüseyn Cavid "Səadət" cəmiyyətinin mədrəsəsində müəllimlik etməkllə yanaşı, Məmməd Əmin Rəsulzadənin redaktorluğu ilə nəsrə başlayan "Açıq söz" qəzeti ilə əməkdaşlıq edib. Ədibin "Müharibə və ədəbiyyat" başlıqlı məqaləsi qəzetin 25 və 26 oktyabr 1915-ci il tarixli saylarında çap edilib. 1916-cı ildə "Qardaş köməyi" məcmuəsinin

---

[1] C. Məmmədquluzadə. Xatiratım. Bakı, 1982, s.61.

[2] Cavidi xatirlarkən: Hüseyn Cavidə həsr olunmuş məqalələr və xatirələr. Bakı: Gənclik. 1982, s.68.

[3] Mirzə Abbas Abbaszadə - Vikipediya az.wikipedia.org/wiki/

[4] Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s. 80 – 106.

redaksiya heyətinin tərkibinə daxil edilən şair bir il sonra "Mühərrirlər və Ədiblər Cəmiyyəti"nin (1917) üzvü seçılib. Daşnakların törətdikləri Mart qırğınları (1918) zamanı Bakıda "Təbriz" mehmanxanasındakı 21 № li otaqda yaşayan Cavid buradan əsir götürülüb, daşnaklar tərəfindən yandırılan "Kaspi" mətbəəsində şairin bir neçə kitabları - "Bahar şəbnəmləri", "Maral", "Şeyx Sənan", "Şeyda", "Ana", "Keçmiş günlər" - səkkiz min nüxsə kitabı yanıb, kül olub. Möcüzə nəticəsində sağ qalan şair Ənzəliyə, oradan Təbrizə, Təbrizdən Naxçıvana gedib, bu acı təsirlər altında "İblis"i (Naxçıvan, 1918) yazıb. "İblis" ədibin Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazdığı yeganə əsərdir. Əsərə görə şair sağlığında mükafatlandırılıb. Bu münasibətlə Azərbaycan Xalq Maarif Komissarlığı kollegiyasının qərarında (1921-ci il 13 yanvar protkol №66) oxuyuruq: "şair Hüseyn Cavidin, orijinallıq və bədiilik cəhətdən müsəlman aləmində yeganə olan pyesinə tarif üzrə müəllif haqqı və mükafat olaraq 150 min manat verilsin."

1919-cu ildə siyasi missiya ilə Naxçıvandan Bakıya gələn Cavid həmin ilin may ayında Müəllimlər İttifaqı İdarə heyətinin üzvü seçılib, A.Şaiqlə birlikdə "Ədəbiyyat dərsləri" adlı kitabı nəşr olunub, daimi iş yeri ilə təmin edilib. "Yaşıl qələmlər" dərnəyinin 1920-ci ildə keçirilən qurultayına dəvət alan şair "Yıldırım" Yazıçılar cəmiyyətinin təşkilat komitəsinin üzvü seçilib. Yenicə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) devrilib. Azərbaycanda hakimiyyəti bolşeviklər ələ alıblar.Artıq məşhur olan ədibin şəninə 3, 4 və 7 saylı məktəblərdə Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun xüsusi tapşırığı ilə, "Cavid gecəsi" (1922, 27 mart) təşkil olunub. Gecənin şərəfinə döş nişanı hazırlanıb.

Yeni quruluşun ilk illərində ədəbi qüvvələri bir istiqamətdə yönəldib sosalizm quruluşunu təbliğ və tərənnüm etmək məqsədi ilə yeni-yeni cəmiyyətlər; Bakı Komitəsinin nəzdində "Ədəbiyyatın Mərkəzi Heyəti" (1921), "Kommunist" qəzetinin nəzdində "Türk ədib və şairlər dərnəyi" (19 avqust 1923) təşkil olunub (Cavid də həmin dərnəyin heyət üzvü seçilib). Kommunist yazıçılarla yanaşı, bu cəmiyyətdə milli ruhlu qələm sahibləri, ədəbiyyatı siyasətdən uzaqlaşdırmağa çalışan yazıçıların fəaliyyəti üstünlük təşkil etdiyi üçün cəmiyyətin fəaliyyətinə imkan verilməyib və "köhnəliyə meyl", "yeni məzmun və formadan uzaq" bir qurum kimi tədricən fəaliyyəti

zəifləyib. Az sonra isə "Kommunist" qəzeti nəzdində "Gənc qələmlər" cəmiyyətinin yaranması və "Ədəbiyyat cəmiyyəti"nin dağılması ilə nəticələnib.

Cəmiyyətlərdə, dərnəklərdə fəal iştirak edən ədibin "Ədəbi parçalar" məcmuəsində (1926, №1) "Azərbaycan ədəbiyyat cəmiyyətinin münsiflər heyətinə daxil olduğu xəbər verilib. Həmin ilin fevral-mart aylarında Bakıda keçirilən Birinçi Türkoloji qurultayda Cavid də iştirak edib. 1926-çı ildə təqaüdə çıxan şairə Azərbaycan Xalq Komissarlar Şurası 120 manat təqaüd müəyyən edib. Bundan sonra Teatr Texnikumunda dərs deyən ədib dövlət hesabına Xalq Maarif Komissarlığının qərarı ilə müasir Avropa ədəbiyyatını öyrənmək və gözlərini müalicə etdirmək üçün Almaniyaya məzuniyyətə göndərilib. Həmin səfərin şairə çox böyük təsiri olub, Avropa təəssüratları əsasında o, Qərb burjua əxlaqını, imperializm və müstəmləkə zülmünü əks etdirən "Azər" və "Knyaz"ı yazıb. "Ədəbi parçalar" məcmuəsində (1926, may, № 1) "Azər" poemasından bir parça "Həp sənsin!" adı ilə çap olunub və H.Cavidin bu şeiri "əfsanəvi" bir qıza həsr etdiyi qeyd olunub. Yenə həmin nömrədə H.Zeynallı "Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim" məqaləsində Cavidin sənətkar qüdrətini göstərməklə, yanaşı, ədibin "Peyğəmbər" əsərini Oktyabr, İnqilab və Lenin mövzusuna, yeni quruluşa meyilli bir addım kimi dəyərləndirib"[1] Əslində isə, Cavid "Peyğəmbər"i Sovet hökumətinin ilk illərində (1922) yazmışdı.. O, nə zamanı mədh etmək istəyində idi, nə də yadların gətirdiyi sovetləri. Başdan-başa "dərin fəlsəfi, ictimai, siyasi, əxlaqi mənası olan həqiqətlərlə, rəmzlərlə, eyhamlarla dolu"[2] olan "Peyğəmbər" əsərinə sovetlərə üsyankar bir tövrlə "Peyğəmbər" adını vermişdi. Bu mövzuda Caviddən əvvəl əsər yazanlar olşa da, "Peyğəmbər" adını verən olmamışdır. Belə ağır və məsuliyyətli bir mövzuya girişməyə böyük cəsarət, yüksək elm və güclü təfəkkür lazım idi, çünki Peyğəmbər haqqında əsər yazmağın özü peyğəmbərliyə yüksəlmək idi, yəni islam Peyğəmbərindən yazan sənətkar ilk öncə sənətinin peyğəmbəri olmalı idı. "Peyğəmbər"i

---

[1] Cavidi xatirlarkən: Hüseyn Cavidə həsr olunmuş məqalələr və xatirələr. Bakı: Gənclik. 1982, s.92.

[2] İsrafilov H. Azərbaycan dramaturgiyasının inkişaf problemləri. Bakı: Elm, 1991. s. 194.

yazmaq, mütəfəkkir Cavidin haqqı idi.

Araşdırmalar göstərir ki, ədibin sövet dövrü yaradıcılığı "Afət"lə (1921) başlayıb. Ədib "Afət" əsərində də sovetlərin yeniləşmə adı altında gətirdiklərinə qarşı çıxıb. Yüngül əyləncə və davranışın "yeniləşmək" kimi qəbul edildiyi cəmiyyətdə yeniləşməni qəbul etməyən, normal əxlaq qaydaları ilə yaşayanlar, "hala əski qafa ilə düşünən", "hənuz bir türlü yeniləşəməyən"lər də, var. Bayağı yeniləşmənin əleyhinə olan Ərtoğrul əslində, Cavidin ictimai düşüncələrini əks etdirir. Bir şərqlinin bu qədər "yeniləşmə"si onun faciəsini yaratdığı kimi, bolşeviklərin gətirdiyi qayda-qanuna uyanları da millətin ruhuna xəyanət kimi qəbul edən ədib yeniləşməyib, türk kimi düşünüb, türk kimi yaşayıb. Kübar cəmiyyət Ərtoğrulu yeniləşdirə bilmədiyi kimi, "yaşadığı sistem" də Cavidi "özündən ayıra bilməyib[1] Yeniləşənlərin nəzərində o, "əski şair" olsa və qınansa da, ədibin uğurları daha çox olub, Bakıda nəşr olunan bütün ədəbi məcmuələr fəaliyyətləri dövründə sənətkarın yaradıcılığına müntəzəm müraciət edib, haqqında məqalələr yazılıb. "Şeyx Sənan" əsəri Təbriz teatrında (1928) mövsümün açılışı münasibətilə səhnələşdirilib"[2], həmin ildə Bakı Sovetinin fəxri üzvü (1928, 21 iyul) seçılən Cavid Azərbaycan yazıçılarının Gürcüstana və Ermənistana gedən nümayəndə heyətinin tərkibində olub (1929), Zaqafqaziya Şura Yazıçıları və İncəsənət Xadimləri Birliyinin üzvü seçilib (iyun), Tiflisdə Zaqafqaziya yazıçılarının plenumuna (1930) qatılıb, "Dəli Knyaz"ı opera şəklinə salmaq üçün eyni adlı liberotto yazıb. Liberottonun mətni son zamanlarda Respublika Əlyazmalar İnstitutunda, M. S. Ordubadinin arxivindən tapılıb[3].1930-cu ildə Cənubi azərbaycanlıların azadlıq uğrunda mübarizəsindən bəhs edən "Telli saz"ı yazıb. Bu qədər aktiv fəaliyyətdə olan ədibi tənqid edən məqalələrin də sayı getdikcə artıb. "Xalq Maarif Komissarlığı 30 sentyabrda (1930-32) Firdovsinin tərcümə əsərləri məcmuəsinin şərh və lüğətlə redaktə işini dekabrin birinədək bitirib, komissarlığın elmi bölməsinə təqdim etmək barədə Hüseyn Cavid və Bəkir Çobanzadə ilə müqavilə bağlayıb[4], müqavilə ilə Akademiyanın dil, ədəbiyyat və

---

[1] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010, s. 67.

[2] Təhmasib T. Cavid İran teatrında // Elm və həyat, 1969, № 9.

[3] Məhəmməd Səid Ordubadi arxivinin izahlı təsviri. Bakı, 2015, 372 s, s, 317.

[4] Azərb. SSR.MDƏİA,f. 351, s-1, iş 8, v.8.

sənət institutuna işə götürülüb. Həmin əmrdə yazılır: “Hüseyn Cavid 1932-ci il oktyabrın birindən etibarən ayda 350 manat maaşla institutun birinci dərəcəli elmi əməkdaşı və məsləhətçisi təyin edilsin”. [1] Həmin ayda “Azərbaycan dil, ədəbiyyat və sənət institutunun direktoru Vəli Xuluflu Xalq Maarif Komissarlığına verdiyi məlumatda görülmüş işlərdən bəhs edərkən “Səyavuş və Südabə” adlı orijinal əsər yazmaq üçün Cavidlə müqavilə bağlandığını xəbər verib”. [2] Azərbaycan dil, ədəbiyyat və sənət institutunun şöbə müdiri Əli Nazimin direktor Vəli Xuluflunun 19 oktyabr 1932-ci il tarixli məktubuna yazdığı cavabdan məlum olur ki, “şöbənin ədəbi redaktoru Hüseyn Cavid Ə.Firdovsinin şöbəyə daxil olmuş tərcüməsini redaktə ilə məşğuldur” .[3]

1933-cü ilin yanvar ayında Azərbaycan Yazıçılar Cəmiyyətinin birinci plenumunda iştirak edən şair, aprel ayında Yazıçılar İttifaqına qəbul komissiyasının üzvü seçılib, bir il sonra (1934, 15 iyun) Azərbaycan Şura Yazıçılarının birinci qurultayında çıxış edib, 1936-cı ildə Şeir dekadasında iştirak edib, Bakıya gəlmiş özbək şairi Qafur Qulamla görüşüb, “Xəyyam” əsəri ədəbi müsabiqədə üçüncü mükafata layiq görülüb. 1937-ci ildə martın 28-də Azərbaycan Sovet Yazıçıları İttifaqının Plenumunda şairin yaradıcılığı “müasir həyatı əks etdirmədiyi” üçün ciddi şəkildə tənqid olunub, ölkə başçısı M.C.Bağırov belə bir zamanda çağırılan K(b)P-nın XIII qurultayında hesabat məruzəsində demişdir: “Son günlərin faktları bir daha göstərir ki, biz hələ düşmənlərimizin hamısını aşkara çıxarıb ifşa etməmişik. Mən bir daha təkrar edirəm... Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa olunmuş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Trinci kimiləri...” [4] Bağırovun “hazırda ifşa olunmuş” – dediyi Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Trinci və b. bir-bir məhv ediliblər. 1937-ci ilin 4 iyun gecəsində H.Cavid “xalq düşməni” kimi həbs olunmuşdur.

---

[1] Məhəmməd Səid Ordubadi arxivinin izahlı təsviri. Bakı, 2015, 372 s, s, 317.
[1] Azərb. SSR.MDƏİA,f. 351, s-1, iş 8, v.8.
[2] Azərb. SSR.MDƏİA,f. 351, iş 8, v.8
[3] Azərb. SSR.MDƏİA,f. 351, s-1, iş 4, v.12
[4] Mirzəyev O. Ağ ləkələr silinir. Bakı: Azərnəşr, 1991. s. 99

Beləliklə, müntəzəm şəkildə bədii yaradıcılıqla məşğul olan (1910-1937) və tutulana qədər Bakıda yaşayan ədibin həyatının Bakı dövrü 1937-ci ildə (iki il də Bayıl həbsxanasında saxlanılıb) sona yetib.

Üçüncü fəslin **"Hüseyn Cavid və Almaniya mühiti"** adlı **altıncı yarımfəslində** Cavidin Almaniya səfəri və təəssüratları araşdırılıb.

Ədibin tərcümeyi-halını əks etdirən müəyyən detallar, bioqrafik məqamlar, onun yaratdığı obrazlarda gəzdiyi yerlər, mühit, yaşadığı cəmiyyət, həyat, sənət haqqında düşüncələrini, fəlsəfi fikirlərini dilə gətirərkən yer alıb. Bütün bunların müəyyənləşdirilib təhlilə cəlb edilməsi ədibin yaradıcılıq tərcümeyi-halının canlandırılmasına imkan verir. Çünki "sənətkarın həyatında baş vermiş və yaddaşında unudulmaz iz buraxmış hadisələr sonradan bədii əsər, surət tip şəklində əsaslandırılmışdır ki, bunlar həmin sənətkarın həyatının bioqrafik cəhətləri ilə təfəkkür və təxəyyül prosesini, mövzu və ya obrazların formalaşması inkişaf yolunu izləməyə imkan verir" [1].

Berlində olarkən I Dünya müharibəsinin ağır fəsadlarını yaşayan Almaniyada əməkçi sinifin ağır istismarı və mühacir insanların dözülməz həyatını, Qərb dünyasının özünəməxsus yaşam tərzini müşahidə etməsi ədibin bu dünya haqqında düşüncələrini daha da dərinləşdirmiş, burada yaşadığı altı ay ərzində müşahidə, düşüncə və təəssüratları, Almaniya mühiti şairin yaradıcılığında; "Azər" və "Knyaz"da Alman cəmiyyətini, əməkçi insanların ağır, dözülməz həyatı, "Dantenin cəhənnəmi"ndən seçilməyən Rur kömür mədənindəki ağır iş şəraitində çalışan fəhlələrin acınacaqlı hallarının təcəssümündə əhəmiyyətli izlər buraxmışdır. Cavidin yaratdığı; Peyğəmbər, Filosof, Aşiq, Fateh kimi həqiqət axtaran obrazlar cərgəsində həqiqət axtarışında olan, türk təfəkürü ilə düşünən Azər obrazı "şairin müasiri, daha çox isə özünün proobrazıdır. O, Azərin simasında keçən əsrin iyirminci illərindən gəncliyin nümayəndəsi kimi təqdim olunan "komsomol" obrazlarına alternativ olan yeni tipli Azərbaycan gəncliyinin obrazını yaratmağa nail olub.

"Yaradıcılığındakı yeni əhvali-ruhiyyəni əks etdirən əsər kimi ciddi maraq doğurmuş" "Knyaz" əsərində Gürcüstan mühitində proletar inqilabının qələbəsindən sonra bir sinif kimi məğlub olan

---

[1] Bayramoğlu A. Bənzərəm bir qocaman dağa ki... Bakı: Elm, 2010, s. 42.

"knyazlar dünyasının" faciəli sonunu göstərən ədib bu şəraitdə qaliblərdən çox məğlubların, Gürcüstanda milli burjua inqilabının hakimiyyətə gəldiyi dövrün Knyazının ağır və acınacaqlı vəziyyətini, keçirdiyi psixoloji halları, maddi və mənəvi cəhətdən iflasını təsvir edib. Damarlarında "ulu bir nəslin qanı" axan Knyazın səfil, sərsəm, tanınmaz bir adla həyatda yaşamaqdansa, Knyaz adı ilə ölməyi daha şərəfli sayması, sonda: "Yox onlara təslim olamam mən"[1] – deyərək intiharı seçməsi diqqətçəkicidir. Cavid burada inqilabı deyil, əksinə, əsil-nəcabətinə xain çaxmayan, Knyaz adı ilə yaşamağı sərsəm həyatdan üstün tutan Knyazı təsvir etməklə yanaşı, Antonun timsalında bolşeviklərin iç üzünü açıb, göstərib. Əsər bu səbəbdən ədəbi tənqiddə "burjua ideologiyasının mübariz" xalturası kimi dəyərləndirilmişdir.

Dissertasiyanın **"Hüseyn Cavid və Azərbaycanda sovet dövrü ədəbi-ictimai mühiti"** adlı **dördüncü fəslin "Hüseyn Cavidin tərcümeyi-halının sovet dövrü ədəbi -ictimai mühiti"** adlanan **birinci yarımfəslində** Azərbaycanda mənzum dramaturgiyanın banisi Hüseyn Cavidin tərcümeyi-halının sovet dövrü araşdırılır

Geniş dünyagörüşə, analitik təfəkkürə malik olan Cavidin yaşadığı dövrdə əsərlərinin tamaşaya qoyulması geniş miqyas alıb, tənqidçilər teatr problemlərinin təhlilinə ciddi yanaşıblar. Cavidin də şeir yaradıcılığı və dramaturji irsi ilə məşğul olan ədəbi tənqiddə bir-birini tamamilə təkzib edən fikirlər söylənib. Ədəbi fikrin ədibə münasibətini dövrləşdirmək və dəqiqləşdirmək baxımından əsas iki mərhələni; 1) 20-30-cu illər; 2) 50-ci illərin axırlarından son dövrə qədər olanı dəyərləndirmək lazımdır: Bu iki mərhələnin birinci mərhələsini Cavid yaradıcılığına baxışın ziddiyyətli, qərəzli tənqid, ikinci mərhələsini isə, şairin daha çox bu ziddiyyətlərdən, qərəzli tənqidlərdən təmizləmə, arındırma, "bəraət" dövrü hesab edilib.

Beləliklə, yarımfəsildə ədəbi tənqidinin ədibə doğru yönələn maraq və diqqəti izlənilib, yaradıcılığına ziddiyyətli baxış, ikili münasibətlə yanaşı, qərəzlərdən, ziddiyyətlərdən arınma dövrü arxiv və dövri mətbuat materialları ilə araşdırılıb, repressiyadan əvvəlki və sonrakı dövrlərdə ədibə münasibət məsələləri təhlil olunub.

**Dördüncü fəsilin "Azərbaycan ədəbi tənqidi və Cavid yaradıcılığı"** adlı **ikinci yarımfəslində** Azərbaycan ədəbi-ictimai

---

[1] Cavid H. Əsərləri. 5 clddə, I c., Bakı: Elm, 2007, s.133.

mühitində daima diqqət mərkəzində dayanan Cavidin taleyində dərin izlər buraxan 1920-30-cu illərin ədəbi-mədəni və ictimai-siyasi mühiti araşdırılıb. Bu qənaətə gəlinib ki, yaradıcılığı dövründə Cavid yalnız tənqid olunmayıb, tənqid bolluğunda həm də yazıçı şöhrətini də yaşaya bilib. Tərifləri də, tənqidləri də sağlığında eşidib. Cavidi təqdir edənlər, sevənlər daha çox olub və bunlar o illərin ədəbi tənqidində bu şəkildə yer alıb: "Düz on il bundan qabaq "Ana" meydana çıxır. O zaman Hüseyn Cavid ancaq yüksələn ulduz idi. İndi isə axtarışlarının dərinliyi, şeirinin gözəlliyi və hisslərinin incəliyi etibarilə türk ədəbiyyatında özünə bərabər qüvvə bilməyən parlaq günəşdir" [1] - sözləri şairin yükşəlisini seyr etmək üçün yetərlidir. Burdan aydın olur ki, ədəbi tənqid bu illərdə Cavidin yaradıcılığına mürəkkəb və ziddiyyətli münasibət sərgiləsə də, şairin "türk ədəbiyyatında özünə bərabər qüvvə bilməyən parlaq günəşə dönüşünü" də görüb və dəyərləndirib.

Yarımfəsildə, ədibin yaradıcılığının 30-cu illərdən tədqiq olunmağa başlaması, həmin dövr ədəbi tənqidinin ədibə doğru yönələn maraq və diqqəti izlənilib, Cavid yaradıcılığına dair doğru və yanlış baxışlar myəyyənləşdirilib, onların səbəbləri aydınlaşdırılıb.

**Dördüncü fəslin "Hüseyn Cavid yaradıcılığı ədəbi məhkəmələr məngənəsində: Cəfər Cabbarlı"** adlı **üçüncü yarımfəslində** C.Cabbarlı və Hüseyn Cavid məsələləri ədəbi məhkəmələr müstəvisində araşdırılıb. Bu zaman nəzərə çatdırılıb ki, Milli hökumətin süqutu (1920) bir çoxları kimi, C.Cabbarlının taleyində də mühim rol oynayıb, "Gənc müsavatçılar"ın içərisində olan Cəfər Cabbarlı həbs edilib (1923) və müəyyən şərtlə azaldığa buraxılıb. Bundan sonra yaradıcılığının birinci dövründə türkçülük məfkurəsi ilə yazıb-yaradan müsavatçı Cəfər sovetlərin ideoloquna çevrilib.. "Yenidən qurulan" Cəfər Cabbarlı müsavata, müsavatçı ideyalara arxa çevirib, bir sovet gənci kimi yazıb, yaradıb. Nəticədə, şəxsi həyatda heç bir narazılığı olmadığı halda, Cabbarlının Cavidə unvanlanan tənqidi yazıları mətbuatı bəzəmişdir. "Respublika Əlyazmalar İnstitutunda C.Cabbarlının arxivindən bir dəftərçənin 22-49-cu səhifələri, "Şeyx Sənan"ın mühakiməsi konspekti

[1] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s. 183.

saxlanılır. Xətt Cəfərindir. Materiallar arasında Cavidə aid qeydlər vardır"[1].

Əvvəllər Cavid sənətindən yaradıcı şəkildə bəhrələnən Cabbarlı Cavidin "Yaşıl yarpaqlar"da yayınlanan və yaradıcılıq konsepsiyasını ortaya qoyduğu "Mənim tanrım gözəllikdir, sevgidir" – şeirinə alternativ olaraq "Kommunist" qəzetində çap olunan bir şeirində "yeni Tanrısını" "bulub" ona sədaqətlə sitayiş edir. "Könlündən, əski dünyanı çıxaran", "artıq fikrim, ruhum, duyğum sənindir" – dediyi "yeni tanrı"sından "oxşa məni", "sevindir"[2] ricalarında bulunan ədib tamamilə başqa bir düşüncə ifadə edir. Sovet hakimiyyəti qurulduqdan sonra bir müddət dram yaradıcılığına fasilə verən Cəfər Cabbarlı 1927-ci ildə "Sevil", "Almaz", 1931-ci ildə "1905-ci ildə", 1932-ci ildə "Dönüş" pyeslərini yazaraq Azərbaycan sovet dramaturgiyasının əsasını qoyub.

Məfkurəvi yolları ayrılan Cabbarlı əqidəsinə və üslubuna xəyanət etməyən Cavidi ən çox tənqid edənlərdən olub. 1921-ci ildə "Kommunist" qəzetinin təşəbbüsü ilə ədəbi əsərlər və ictimai tiplər üzərində mühakimələr qurulması qərara alındığından sonra qəzetdə bu yaxınlarda "Şeyx Sənan" üzərində mühakimə qurulacağı xəbəri verilib. Ədəbi məhkəmələrdə həmişə yoldaş Cəfər prokuror, Cavid isə sorğulanan tərəf olub. Dövri mətbuatda ideoloji cəhətdən yenidən qurulan Cabbarlının "Cim" imzası ilə Cavidə qarşı tənqidləri davam edib. Ədibin "Şeyx-Sənan" əsəri haqqında eyniadlı tənqidi məqaləsində "əsərin bir qaç nüqtəsinə şairimizin diqqətini cəlb etmək istəyərək" ("Kommunust" qəzeti, 1921, 15 noyabr) yazır: "Cümə günü, noyabrın 11-də möhtərəm şairimiz Hüseyn Cavidin "Şeyx Sənan" adlı faciəsi oynandı. Möhtərəm müəllif, guya "İblis"də bütün xətaların intiqamını "Şeyx Sənan"dan almış kimi, əsərin hər bir cəhətinə diqqət etmişdir. Əsərdə gözəl tiplər və bir çox həyacani-bədii səbəbiyyət verici mənzərələr vardır ki, bunun üzərində möhtərəm ədibimiz bu müvəffəqiyyəti üçün səmimi qəlbdən alqışlamaqla bərabər, əsərin bir qaç nüqtəsinə şairimizin diqqətini cəlb etmək istərdik"[3] sözlərindən sonra yazılanlarda başqa bir şəkil

[1] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s. 183.
[2] Cabbarlı C. Əsərləri 4 cilddə, I c., Bakı: Şərq-Qərb, 2005, s.71.
[3] "Cim". Ədəbi mübahisələr / Cavidşünaslıq. Araşdırmalar toplusu. On cilddə, II-III

alan “Cim” “möhtərəm şairimiz” adlandırdığı Cavidi kəskin tənqid edir. Bir il sonra isə, “Zəhmət” qəzetində (1922, 19 iyun) “Cim” imzalı müəllifin “Ədəbi mübahisələr” başlıqlı məqaləsinin çap edilməyə başlaması haqda məlumat verilib. Cavidin yaradıcılığı və əsərlərinin təhlilinə həsr edilmiş, bir-birinin ardınca “Zəhmət” qəzetinin 20, 23, 24, 27 və 28 iyun tarixli saylarında verilən bu tənqidi yazılarda, guya Cavidin şeiriyyətini yüksək qiymətləndirən “Cim” sənətkarı dramaturq kimi qəbul etməyib, “Qafqasiyada sevimli və hörmətli şair olduğunu inkar etmədiyi” Cavidə yalnız şairliklə məşğul olmağı tövsiyə etmişdir. Ona görə, “Cavidin gərəksə “İblis”i, gərəksə “Afət”i və yaxud “Uçurum”u, “Şeyx Sənan”ı xəllaqına yaraşar bir əsər olmayırlar. Bu əsərlərin bu qədər zəif və səhnə üçün natəmam olmaqları Hüseyn Cavidə yalnız şair olmağını tövsiyə etməzmi? Əlbət ki, edərsə, bəlkə də türk ədəbiyyatında parlaq bir mövqe tutması üçün fəqət bir şair olub qalmasını əvvəldən tələb edir”.[1] Bu tənqidlər Cavidin “Şeyx Sənan”ının Əli Bayramov adına klubda Həbib Cəbiyevin sədrliyi ilə aparılan ədəbi-ictimai mühakiməsində (1924, dekabr) prokuror sifəti ilə çıxış edən Cəfər tərəfindən davam etdirilib, bir aydan çox çəkən bu ədəbi-ictimai mühakimənin qəbul etdiyi qərara görə, “Şeyx Sənan” hazırkı ictimai tərbiyə nöqteyi - nəzərincə cəmiyyət üçün zərərli bulunub. Cabbarlının fikrincə, “Cavid sırf romantik bir yazıçı deyildir. O gah romantik, gah idealist, gah realist kimi sentimentalistdir. Fəqət Cavid kim olursa olsun, hanki məktəbə mənsub bulunursa, həmin məktəblər üsulu ilə yazdıqlarına müvəffəq olmuşsa-olmamışsa, fərq etməz. Şimdi Cavid var. Yazıyor”.[2] O, “Ədəbi mübahisələr” məqaləsində Cavid yaradıcılığının problematikasını, sənət təmayülünü “Şeyx Sənan”, “Uçurum”, “Afət” və “İblis” əsərlərindən bəhs edərkən tənqid edib, ədibin dövrlə ayaqlaşa bilmədiyini əsaslandırmağa çalışıb, “İblis”in son quruluşu” adlı məqaləsində (Kommunist, 1925, 12 aprel, say 82) pyesin səhnə tərtibatındakı nöqsan və

---

c. Bakı:Elm, 2007, s. 173-175.

[1] Cabbarlı. C. Ədəbi mübahisələr / Cavidşünaslıq. Araşdırmalar toplusu. On cilddə, II-III c., Bakı: Elm, 2007, s.173-175.

[2] Cabbarlı. C. Ədəbi mübahisələr / Cavidşünaslıq. Araşdırmalar toplusu. On cilddə, II-III c., Bakı: Elm, 2007, s.173-175.

çatışmazlıqları”[1] diqqətə çəkib. Cavidin “təqdim ediləcək müsbət cəhətləri də yox deyildir, - fikrinə gələn Cabbarlı yazır: “Caviddə su kimi duru, almas kimi saf, parlaq və oynaq bir lisan vardır ki, bu islahına çalışan lisanımızın təkamül özülü ola biləcəkdir, zənnindəyik”; “Caviddə bir də fəlsəfə vardır”, “bu fəlsəfələr müxtəlif əsərlərdə bir-birinə təzad təşkil etsələr də, Cavidin əsərləri fikir və fəlsəfə cəhətincə bir-birinin mütəmmimi olsalar da, olmasalar da, bizcə, Cavid üçün bir nöqsan olmazlar. Cavid hal-hazırda ədəbiyyatımızın yoqsulluğu içində böyük bir mövqe tutur”.[2] Onun göstərdiyi bu məziyyətlər məqalədəki tənqidi fikirləri sığortalamaqdan başqa bir şey deyildir. Cavidə ilk Cabbarlının dilindən söylənən bu iradlar sonralar çoxları tərəfindən söylənilib, şairin yeni quruluşu tərənnüm etməmə səbəbləri üzərində baş sındırılıb, yaradıcılığında qeyri-milli, Azərbaycan ədəbiyyatına yad notlar axtarılıb və bütün bunların mayasında dövrana, rejmə qulluq məsələsi dayanıb. Cavidə qarşı bu münasibətin əsasının qoyulmasında gənc Cabbarlı rejm tərəfindən vasitəyə çevrilib.

**Dördüncü fəslin “Cavid repressiya kontekstində”** adlı **dördüncü yarımfəslində** şairin keçən əsrin əvvəllərində, “Azərbaycan ədəbiyyatı dövründə ideoloji sapıntılar dövrü kimi xarakterizə olunan”, ağır və təzadlı dövrə təsadüf edən repressiyasından - həbsindən bəhs edilir.

1920-ci ildə Azərbaycanda hakimiyyəti ələ alan bölşeviklər partiyası təkcə ictimai-siyasi həyatda deyil, ideoloji sahədə, elm, incəsənət və ədəbiyyatda da hegemonluğu ələ alır. Tezliklə “sinfi mübarizə şüarı bədii ədəbiyyata da sirayət edir: ədəbiyyata yeni gələn gənclər və onlara dəstək olan ideoloji rəhbərlər böyük bir canfəşanlıqla partiyalı ədəbiyyat uğrunda mübarizəyə başlayırlar”[3] Çoxlarının “cənfəşanlıqla partiyalı ədəbiyyat uğrunda mübarizəyə başladı”ğı bir zamanda Cavid onlarla bir cəbhədə olmayıb. Sovetlərin Azərbaycana gəlişindən öncə hansı inamla, hansı üslubda yazıbsa, elə də davam edib, “homossovetikus” (sovyet insanı)

---

[1] Cabbarlı. C. Ədəbi mübahisələr / Cavidşünaslıq. Araşdırmalar toplusu. On cilddə, II-III c., Bakı: Elm, 2007, s. 173-175.
[2] Cim. Ədəbi mübahisələr/Cavidşünaslıq. 10 cilddə, II-III c. Bakı:Elm, 2007, s. 173-175.
[3] Babaxanlı G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010, s.14

olmayıb. Bununla da şair öz taleyini seçib. Cavid ən böyük "suç"una, "sovet insanı" olmaq istəməməsinə görə, tənqidçilər tərəfindən tez-tez "suç"lanıb. Sovet insanı ola bilməyən Cavid sovet şairi də olmayıb. Sovet şairi olmayan Cavid "Topal Teymur", "Peyğəmbər" əsərlərinə görə "keçmişi ideallaşdırmaq"la suçlanıb, "Topal Teymur" tamaşaya qoyulduqdan sonra qəzet səhifələrində bir-birini təkzib edən fikirlər yer alıb, "öncə oynanılmasına icazə verilən əsər tamaşaçıları həyəcana gətirsə də sonradan bolşeviklər pyesin göstərilməsini qadağan edib".[1] Cavid yazılma tarixinə görə sonuncu əsəri sayılan "İblisin intiqamı" əsərində belə "ənənəsinə sadiq qalıb, məhəlli mövzularda deyil, bəşəriyyəti narahat edən fikir və ideyaları özündə ehtiva edən məzmuna üstünlük verib"[2].

Yaradıcılığına qərəzli fikirlərin, iftiraların söylənməsi, Hüseyn Cavidin həbsi ilə nəticələnmiş, Dövlət Təhlükəsizlik İdarəsinin 3 iyun 1937-ci il tarixli 509 saylı orderi ilə NKVD-nin 4-cü şöbəsi, Pavlov, Federenko və Sarkisyanın iştirak etdiyi üçlük tərəfindən 1937-ci ilin iyun ayının 3-dən 4-nə keçən gecə Cavidin evində axtarış aparılaraq həbs edilmişdir. İstintaq prosesi iki il bir ay çəkmiş, 1939-cu il iyun ayının 9-da keçirilmiş xüsusi müşavirədə Hüseyn Cavid heç bir dəlil-sübut olmadan "antisovet təşkilatında iştirakına və təbliğatına, müsavatçı pantürkist, əksinqilabi təşkilatın üzvü, əksinqilabi fəaliyyətinə, ədəbiyyat və dramaturgiya sahəsində gənclərin millətçi əksinqilabi ruhda tərbiyə olunması istiqamətində gördüyü işlərə, pantürkist ideyaların yayılmasına xidmət etdiyinə görə" 8 il müddətinə azadlıqdan məhrum edilib, islah-əmək düşərgəsinə göndərilməsi qərara alınıb. Həmin müşavirədə digər bir qərarla şair 1939-cu ildə Sibirə sürgün edilib. Xəstəliyi ilə əlaqədar Maqadandan İrkutska əlillər zonasına göndərilən Hüseyn Cavid 1941-ci il, dekabrın 5-də Tayşet rayonunun Şevçenko kəndində, əlillər xəstəxanasında 59 yaşında vəfat edib.

Repressiyadan sonra şairin ailəsi böyük faciələrlə üzləşib, ailəsi yaşadığı evdən bayıra atılıb, o zamanlar gənc qız olan Turan xanımın gələcək haqqında xəyalları alt-üst edilib. Gürcüstanda

---

[1] Rəsulzadə M. Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s. 62.
[2]Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər, İstiqamətlər, problemlər. Bakı: Elm və təhsil, 2015, s. 304.

cərimə batalyonunda xidmət edən oğlu Ərtoğrol ağır xəstəliyə düçar olub, 1943-cü il oktyabrın 14-də Naxçıvanda dünyasını dəyişib.

1956-ci ildə digər repressiya qurbanları kimi işində cinayət tərkibi olmadığına görə Hüseyn Cavidə də bəraət (ölümündən sonra) verilib.

**Dördüncü fəslin "H.Cavid irsi repressiyadan sonrakı və bəraət mühitində"** adlı **beşinci yarımfəslində** şairin repressiyadan sonrakı dövrünə, əsl bəraətinə, ümummilli lider Heydər Əliyevin Cavid sənətinə və şəxsiyyətinə münasibətinə nəzər salınır.

Cavidə bəraət 1956-cı ildə verilsə də, ona əsl bəraəti ümummilli lider Heydər Əliyev 1981-ci ildə şairin anadan olmasının 100 illiyinin yüksək səviyyədə keçirilməsi haqqında qəbul etdiyi qərarla verib. Bu qərarı Turan xanım xatirələrində belə qiymətləndirib: "Bu ədalətin zəfər çalması idi".[1]

Beləliklə, "Ədalətin zəfər çaldığı" bu qərarla Cavidə Heydər Əliyev ikinci ömür bəxş edib. Məhz bu qərardan sonra Cavidin bənzərsiz irsinin əsl qiymətini vermək, xalqına qaytarmaq üçün ciddi işlər görülüb, Bakıda və Naxçıvanda ədibin ev muzeyləri yaradılıb, monimental heykəli (Bakı) ucaldılıb, əsərləri çap olunub, pyesləri üzərindən qadağalar götürülüb, teatr səhnələrində tamaşaları qoyulub.

Yarımfəsildə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin görkəmli sənətkar Hüseyn Cavidin sənətinə dövlət səviyyəsində verdiyi yüksək dəyər repressiya qurbanı olmuş ədibin real bəraəti kimi qiymətləndirilmişdir.

**Dördüncü fəslin "Hüseyn Cavidin ədəbi estetik idealları və müasir dövr"** adlı **altıncı yarımfəslində** Azərbaycan ədəbiyyatında hadisə olan, böyük idealları və yüksək sənət keyfiyyətləri ilə əbədilik qazanmış Cavid yaradıcılığı və müasir dövr təhlil edilir.

İlk qələm təcrübələrindən yüksək əxlaqi fikirlər, təmiz insani keyfiyyətlər tərənnüm edən şairin təbliğ etdiyi "dünyanı gözəllik və sevgi ilə dərk etmək olar", "gözəl və xeyirxah olan bir şey varsa, o da yalnız yaxşı əməllər ardınca getməkdir" – kimi qayələr, əxlaqi dəyərlər insanı özünüdərkə səsləmişdir. Cavid "kamala çatmış insan" düşüncəsində əsas iki cəhət üzərində durmuşdu; insanın xislətində, əxlaqında, mənəvi həyatında mövcud olan ruhi gözəllik və "idrakda

[1] Cavid H. Əsərləri. Beş cilddə, I c., Bakı: Elm, 2007, s. 6.

parlayan əqli rövnəqləndirən və düşüncəyə zinət verən mərifət nuru.” Cavid sənətində yüksək poetik ifadəsini tapmış bu “fikir silsilələrini” qavramaq, dərk etmək üçün, həmin fikirlərin fövqünə qalxmaq zəruridir, “əks təqdirdə, Cavid dərkedilməzdir”.[1] Deməli, yaradıcılığı həyata, dünyaya, insana olan baxışlarının əsas konsepsiyası, ümumilikdə, insan talelərinin, bəşər həyatının tarixi salnaməsi olan Hüseyn Cavidi dərk etməyin yolu onun ideyalarının mahiyyətini dərk etməkdən keçir.

**Nəticədə** tədqiqada gəlinın elmi qənaətlər ümumiləşdirilmiş, Hüseyn Cavidin dövrü, mühiti və müasirləri, yaradıcılıq yolu keçmiş sovet ideologiyasından uzaq, real fakt və sənədlərlə, ətraflı və obyektiv, yaşadığı və olduğu kimi təhlil və təqdim olunmuşdur. Aparılmış çoxillik tədqiqat işinın məntiqi sonluğu olaraq aşağıdakı şəkildə xülasə edilmişdir:

1. Hüseyn Cavidin anadan olduğu, uşaqlıq və yeniyetməlik illərini keçirdiyi özünəməxsus ənənələrə malik olan Naxçıvan və böyüyüb boya-başa çatdığı maarifpərvər ailə mühitlərinin səciyyəvi xüsusiyyətləri, təhsil aldığı Naxçıvan-Təbriz-İstanbul kimi mədəniyyət mərkəzlərinin gələcəyin filosof şairinə təsiri müəyyənləşdirilmiş;
2. Mollaxana təhsili araşdırılmış, “Tərbiyə” məktəbində oxuduğu dövr, bu məktəbin Cavidin dünyagörüşünün formalaşmasında və ideya-mənəvi təkamülündə rolu araşdırılmış;
3. İran mühiti, ”Talibiyyə” mədrəsəsindəki təhsil illəri və bu mühitin şairin təkamülündəki yeri müəyyən edilmiş;
4. İstanbul universitetindəki təhsil mühiti, müəllimləri: Rza Tevfik Bölükbaşı, Məhmət Akif, Cənab Şəhabəddin, Xalid Ziya Uşaqlıgildən aldığı dərslərin əhəmiyyəti, şairin türk ədəbi mühiti ilə əlaqələri, İstanbul mətbuatında dərc edilmiş şeirləri tədqiq edilmiş;
5. Şairin naxçıvanlı müasirləri; M.T.Sidqi, Q.Şərifzadə, E.Sultanov, C.Məmmədquluzadə, Şeyx Məhəmməd, X.Hacılarovla olan qarşılıqlı əlaqələri, bu əlaqələrin şairin dünyagörüşündə buraxdığı izlər, yaradıcı müasirlərinin

---

[1] Əlioğlu M. Darıxan adamlar. Monoqrafiya. İki cilddə. II c., Bakı: Təhsil, 2009, s. 281.

ədibin yaradıcılığına münasibəti dəyərləndirilmiş;

6. Dünyagörüşünün formalaşmasının və bədii yaradıcılığının inkişaf mərhələləri; Gəncə, Tiflis, Bakı dövrü, Almaniya səfəri və təəssüratlarının yeri və əhəmiyyəti müəyyənləşdirilmiş;
7. Cavid və Azərbaycanda sovet dövrü ictimai-ədəbi mühiti, dövrün ideologiyasına xidmət edən şairə ikili münasibət – H.Cavid və C.Cabbarlı ədəbi məhkəmələrdə məsələləri araşdırılmış;
8. Cavidin həyatı, fəaliyyəti və yaradıcılığının 1980-90 ilədək olan dövrü əhatə edən tədqiqat tarixi öyrənilmiş, şairin bəraəti ümumiləşdirib dəyərləndirilmiş;
9. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin görkəmli sənətkar Hüseyn Cavidin sənətinə dövlət səviyyəsində verdiyi yüksək dəyər repressiya qurbanı olmuş ədibin real bəraəti kimi qiymətləndirilmişdir.

**Dissertasiya üzrə müəllifin aşağıdakı monoqrafiya və məqalələri çap olunmuşdur:**


1. Hüseyn Cavid: mühiti və müasirləri (monoqrafiya). Bakı: AFPoliqrAF, 2015, 288 s.
2. Məhəbbət dastanı // "Mədəni-maarif" jurn., Bakı, 2006, № 10, s. 50 -52.
3. Hüseyn Cavid və Əbdülhəq Hamid // H.Cavid:Taleyi və sənəti (Tərtib edəni: İ.Həbibbəyli). Bakı: Nurlan, 2007, s. 62-78.
4. Özünü dərkdən özünü tərkə // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2007, №1, s. 3-9.
5. Hüseyn Cavid yaradıcılığında Şərq və Qərb problemləri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası. Naxçıvan, 2007, №, 3, s. 45-49.
6. Muxtariyyət dövründə Naxçıvanda ədəbi mühit // Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Bakı: Nurlan, 2007, s.175- 188.
7. "Afət" əsərində mühit və gözəllik problemi // "Mədəni-maarif" jurn., Bakı: 2007, № 4, s. 29 -33.

8. Hüseyn Cavid və Ömər Xəyyam paralellikləri // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2007, № 1, s. 136 -141.
9. Hüseyn Cavid yaradıcılığında qadın azadlığı // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2007, №3, s. 190-197.
10. Hüseyn Cavid və Məhəmməd Tağı Sidqi // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçvan, 2008, №3, s. 93 – 100.
11. Cavid yaradıcılığında özünüdərk məsələsi // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçvan, 2008, №1, s. 188-195.
12. Mollaxanadan başlanan yol // Filologiya məsələləri. Bakı, 2008, №1, s. 62-78.
13. Hüseyn Cavidin həyatının Tükiyə dövrü // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası. Naxçıvan, 2008, №4, s. 96-101.
14. Hüseyn Cavid yaradıcılığında təbiət // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2008, №8, s. 72-80.
15. Məhmət Akif Ərsoy və Azərbaycan şairləri / Uluslararası Məhmət Akif Ərsoy simpozyumu materialları. Türkiyə, 2009, s. 479-483.
16. Şeyx Məhəmməd Rasizadənin taleyi və yaradıcılığı // AMEA-nın Naxçıvan Bölməsinın Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2009, №1, s. 200-233.
17. Məmməd Cəfər yaradıcılığında Hüseyn Cavid // Akademik Məmməd Cəfər Cəfərov. Taleyi və sənəti (Tərtib edəni: İ.Həbibbəyli). Bakı: Elm və təhsil, 2009, s.169-180.
18. Hüseyn Cavidin ideya atası - Qurbanəli Şərifzadə // AMEA - nın Naxçıvan Bölməsinın Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2010, № 1, s. 124-129.
19. Hüseyn Cavidin yaradıcılığında İstanbul // AMEA-nın Naxçıvan Bölməsinın Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçvan, 2010, №3, s. 80-84.
20. Hüseyn Cavid və Mirzə Cəlil: dünyagörüşündəki fərqliliklər və yaradıcılığındakı oxşarlıqlar // Cəlil Məmmədquluzadə: taleyi və sənəti (Tərtib edəni: İ.Həbibbəyli). Bakı: Elm və təhsil, 2010, s. 41-61.

21. Namiq Kamalın Azərbaycan ədəbiyyatına təsiri / Uluslararası Namiq Kamal simpozyumu materialları. İki cilddə, I cild. Tekirdağ: 2010, s. 99-109.
22. Şeyx Məhəmməd Rasizadə xatirələrdə // Filologiya məsələləri. Bakı, 2010, №12. s. 245-250.
23. Eynəli bəy Sultanov və naxçıvanlı müasirləri // Eynəli bəy Sultanov: taleyi və sənəti (Tərtib edəni: İ.Həbibbəyli). Bakı: Elm və təhsil, 2011, s. 152-65.
24. Hüseyn Cavid və Ortaq türkcə ideologiyası // Bal-tam türklük bilgisi jurn., (Balkan-Türk Araşdırmalar Mərkəzinin Hakimli jurnalı). Kosova, 2011, №15, s. 113-122.
25. Hüseyn Cavidin epistolyar irsində İstanbul // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası. Naxçıvan, 2010, №2, s. 80-84.
26. Hüseyn Cavid əfəndinin L.N.Tolstoy haqqında qənaətləri // Filologiya məsələləri. Bakı, 2011, №9, s. 289-293.
27. Əliqulu Qəmküsarın müasiri: Hüseyn Cavid // Əliqulu Qəmküsar: Taleyi və sənəti (Tərtib edəni: İ.Həbibbəyli). Bakı,:Elm və təhsil, 2011, s. 78-86.
28. Hüseyn Cavid əfəndi və Əbdülhəq Hamid Tarhan yaradıcılığındakı bənzərliklər // ”Kardeş kalemler” jurn., Aylıq Avrasiya Ədəbyyat Dərgisi. Ankara, 2011, № 56, s. 64-71.
29. Azərbaycan ədəbiyyatının “fikir və söz zadəganı Hüseyn Cavid əfəndi // ”Kardeş kalemler” jurn., Aylıq Avrasiya Ədəbyyat Dərgisi. Ankara, 2012, №10, s. 34-41.
30. Sovetlər dönəmində Şərq siyasəti və Hüseyn Cavid yaradıcılığında Şərq / Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında simpozyumu materialları. Bakı, 2012, s. 220-228.
31. Hüseyn Cavid yaradıcılığında milli dəyərlərimiz // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası. Naxçıvan, 2012, №1, s. 29-34.
32. Azərbaycanın məşhur şair-dramaturqu Hüseyn Cavid əfəndi və türk romantik yazıçılarının əsərlərinin dil və üslub incələmələri / 2.Uluslararası Türk dili və Ədəbiyyatı simpozyumu. Sparta, 2012, s. 135-149.
33. Poэт - драматург Гусейн Джавид в русскo язычной

печати / Проблемы филологии народов Поволжья. Материалы Всероссийской научно-практической конференции. Moskva, 2013 г, Вып 7, с. 32-35.
34. Türkcənin inkişafına xidmət edən Hüseyn Cavid və Şəmsəddin Sami / Uluslararası dil və ədəbiyyat konfransı: Balkanlarda Türkcə. Bildiri kitabı I. Arnavutluk, Tiran, 2013, s. 244-251.
35. Füzuli ənənələri Hüseyn Cavid yaradıcılığında / Çağımızdan görünən Orta əsrlər: AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor R.Azadəyə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları. Bakı, 2014, s. 508-514.
36. Hüseyn Cavid Osmanlı - Türk mətbuatında // Ədəbi əlaqələr, Toplu VIII. Bakı, 2014, s. 197-206.
37. Şeyx Məhəmməd Rasizadə // Axtarışlar. Elmi toplu (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix). Naxçıvan, 2014, №3, s. 67-75.
38. Ədəbiyyatda türk təfəkkürü: özündərk və özüntərk / Türk ədəbiyyatları və musiqi sənətinin kökü və inkişafı simpozyumu materialları. Kazan, 2014, s. 54-59.
39. Hüseyn Cavid yaradıcılığında bioqrafik məqamlar // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası, Bakı, 2015, №1, s. 55-63.
40. Hüseyn Cavidin epistolyar irsində bioqrafik məqamlar // Ədəbiyyat məcmuəsi.Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri. Xüsusi buraxılış. Bakı, 2015, XXVI cild. s. 65-75.
41. Əli bəy Hüseynzadə və Hüseyn Cavid // Böyük ədib və mütəfəkkir Əli bəy Hüseynzadə. Bakı: Elm, 2015, s. 452-465.
42. Hüseyn Cavid əfəndinin yaradıcılığında türkcə danışan çocuqlar / II. Uluslararası Çocuq və gənclik ədəbiyyatı simpozyumu materialları.İstanbul, 2015, s. 39-46.
43. Savaş və ədəbiyyat: Çanaqqala // ”Kardeş kalemler” jurn., Aylıq Avrasiya Ədəbiyyat Dərgisi. Ankara, 2016, №11, s. 72-84.
44. Hüseyn Cavidin dilinin bərpası / IX Uluslararası Türk Kültürü, Sənəti və Kültürəl Mirası Qoruma simpozyumu. Verona-İtaliya, 2016, s. 621-629.

45. Türk kültürü, mitolojisi, tarixi və ədəbiyyatı / IV. Uluslararası Türk sənətləri, tarixi və folkloru kongresi. Konya, 2016, s. 649-57.
46. About European poetry traditions of the turkish literature // International Science Journal. Teoreticeskaa i prikladnaa nauka. Applied Science. p-ISSN: 2308-4944 -ISSN: 2409-0085.USA, 2016, Issue: 3 Volume: 35, p. 40-44.
47. «Поэт и драматург Гусейн Джавид в русскоязычной печати» // журнала «Мови и культура» (Науковий журнал) Киевского Национального Университета имени Тараса Шевченко. Вип. 19. – Т. II (182). Kiev, 2016, с. 360-65.
48. «Гусейн Джавид и Леонид Николаевич Андреев» // журнала «Мови и культура» (Науковий журнал) Киевского Национального Университета имени Тараса Шевченко. Вип. 19– Т. III (183). Kiev, 2016, с. 142-148.
49. ”Şeyx Sənan”- yarıməfsanəvi tarix // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası. Bak, Elm, 2017, s.61-67.
50. “Şəlalə” jurnalinda polemikalar və mübahisələr:X.X. Səbribəyzadə və Cavid əfəndi // Təhsil jurnalı (Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı). Bakı, 2017, №8, s.73-77.
51. Tarixi əfsanə: “Şeyx Sənan” // Üç Çizgi Dərgisi. Əskişəhər, 2017, № 2, s.14-19.
52. Hüseyn Cavid sənətində Qərb şeir ənənəsi (pitoreks sənəti) / “Hüseyn Cavidin sənət fəlsəfəsi” beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2017, s.122-131.
53. ”Şeyx Sənan” və tarixilik // Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri. XXXI cild. Bakı, 2017, s. 57-66.
54. Western poetry, ”Servet-I Funun” and Huseyn Javid // Confrontation. Literaru magazine. Hudson, USA, 2018, ISSUE 123, No.1, - Sprıng Long Island unıversıty, p. 113-123.

**Lutviyya Suleyman gizi Asgerzade**

# LITERARY IDEOLOGY AND ART OF HUSEYN JAVID IN HIS PERIOD'S LITERARY -CULTURAL AND SOCIAL ENVIRONMENT CONTEXT

## SUMMARY

The thesis under the headline "Literary ideology and art of Huseyn Javid in his period's literary, cultural and social environment context" consists of an Introduction, 4 chapters, conclusion and the references. The Introduction substantiates as a rule the topicality of the theme, subject of research, its objective, duties, scientific novelty and theoretical and practical importance. The first chapter consisting of fife sub-chapters is called "the role of the literary-social environment in formation of Huseyn Javid's world view". This chapter, examining the social-cultural environment of 60-90s of the 19-th century of Nakhchivan, possessing rich and ancient history, great cultural and statehood traditions substantiates the great artist's formation in this rich social-cultural and educational environment, revealed lots of new facts pertaining to the family of Rasizase, this family's genealogy, employment and the role in shaping of the future thinker as a personality. The authority of the father of the poet Haji Molla Abdulla, called by him "turbaned intellectual" in the family and the environment, his role in his sons' education, formation of their talent and worldviews have been researched in this chapter too. The educational years of the poet in the mollakhana (Moslem ecclesiastical school) and madrasa (religious school of Muslims) has been studied, thus, the role of Islamic factor in shaping of the poet's worldview was shed light; years of study of Huseyn Javid in "Maktabi-Terbiye" headed by Mammadtagi Sidgi and the role of this school in the life of the future poet and in directing of his worldview were determined. The second chapter ("Huseyn Javid and his enlightener contemporaries in Nakhchivan literary-social environment") consists of five sub-chapters. This chapter, which can be called a core of the thesis touches upon the analysis of the environment forming the thinker-poet as a personality, his mutual relations with the enlightener contemporaries in Nakhchivan – Gurbanali Shafizade, Jalil Mammadguluzade, Eynali bey Sultanov, his brother Sheikh Mahammad Rasizade for the sake of advantage and matters concerning unity of faith and consensus being substantiated with new facts are interpreted and treat of the positive influence of these personalities on Huseyn Javid's life and creative way.

The third chapter of the thesis ("Huseyn Javid's art in his period's literary-social environment's context") consists of six sub-chapters. This chapter deals with the analysis of the stage of Huseyn Javid's life and creative way after 1898,

years of study in the Southern Azerbaijan – in Tabriz and Urmiya cities, his eyes treatment, sending of articles to the newspaper "Shargi-Rus" and letters written by him to M.Sidgi were involved to the detailed research, besides, his life's period passed in Turkey, his relations with Istanbul literary-enlightener environment, obtaining a chance to be acquainted with the European literary and philosophy, sending of poems written in Turkey to "Fyuzat" and "Irshad" were noted based on facts and evidences. The notes written under many poems written within the years of study in Istanbul: i.e. the names of places, such as: Istanbul, Boyukdere, Kagithane, Boyukada and so on, being involving into focus of attention were served to prove that these poetic samples were published in the magazines such as, "Ijtihad", "Edebiyyati-Umumiyye", the first emigration newspaper "New Caucasus" and in "New Collection", but not only in "Sirat-ul-Mustagim".

The research substantiated in detailed form the reasons of the arrival of H.Javid to Turkey. Based on the in depth comparison of the works of the great thinker and poet with the Turkish romantic poets there was concluded that despite some similarities between Javid's works and the aforementioned Turkish romantic poets, the individual identities raised him to the level of original and mighty artist. The thesis has also examined the role of environments of Ganja, Tiflis and Baku (the period before repression) in Huseyn Javid's life and literary-cultural activity. Besides, the author has researched his works written under influence of the travel to Germany. The forth chapter ("Huseyn Javid and the soviet period's social-literary environment") is dedicated to the analysis of the soviet period of his life, the dual attitude of the literary critic to the art of Huseyn Javid; this chapter contains an attitude towards ideas forwarded by the literary critic in connection with Husyen'Javid's works. The literary courts organized as regards the poet's works and attitude of Jafar Jabbarli towards Huseyn Javid's works were analyzed and there is provided comprehensive information about slanders of literary critic on Huseyn Javid. Researches dedicated to the relations between Javid and Jabbarli in the thesis provide possibilities to imagine the period and the environment as they were. The literary successes and poignant destiny of H.Javid, the factor of Heydar Aliyev in his rehabilitation were analyzed, as a result of which, the care paid by the national leader was appreciated as a real rehabilitation of the great thinker. The poet's literary and aesthetic ideas and other matters, such the modern period have been examined from new and original point of view.

The biography, period, environment and contemporaries of the great thinker H.Javid, lived and created at the beginning of the 20-th century, the artist of very complicated period of the national literary, his creative way were objectively analyzed and presented based on irrefutable real facts and documents.

The thesis used rich scientific references, the heritage touching upon Javid's works, period's materials of press and archive documents, as a result there were obtained objective scientific conclusions.

**Лютвия Сулейман кызы Аскерзаде**

# ЛИТЕРАТУРНАЯ ИДЕОЛОГИЯ И ТВОРЧЕСТВО ГУСЕЙНА ДЖАВИДА В ЛИТЕРАТУРНО-КУЛЬТУРНОМ, ОБЩЕСТВЕННОМ КОНТЕКСТЕ СОВРЕМЕННОЙ ЕМУ ЭПОХИ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 4-х глав, заключения и списка использованной литературы. Во введении обосновывается актуальност темы, определяются обьект, цель и задачи, научная новизна, теоретическая и практическая значимость исследования.

I глава – «Роль литратурно – общественной среды в формировании мировоззрения Гусейна Джавида» - состоит из 5 разделов. В данной главе на фоне общественно-культурной среды 60-90-х годов в Нахчыване, известном своей древней и богатой историей, высокой культурой и традициями государственности, обосновывается роль этой среды в созревании великого поэта, вводится в научный оборот ряд новых фактов о роли генеалогии семьи Расулзаде в формировании личности видного мыслителя. Определяется также роль авторитета его отца Гаджи Молла Абдуллы, которого поэт называл «интеллигентом с бедовой головой», в семье и окружении, воспитании детей, эволюции мировоззрения будущего поэта – романтика. Вносится ясность в вопрос о месте исламского фактора в формировании мировидения Гусейна Джавида еще в годы учебы в моллахане и медресе. Определяется также место в жизни будущего поэта периода его учебы в «Мектеби-Тербийе», директором которой был Мамед Таги Сидги.

II глава диссертации – «Гусейн Джавид и современне ему просветители в Нахчыванской общественно-литературной среде» - составляющей ядро исследования, рассмотрены взаимоотнощения поэта с такими современниками-просветителями, как Гурбанали Шарифзаде, Джалиль Мамедгулузаде, Эйнали бек Султанов, брат Шейх Мохаммед Расизаде, на основе новых фактов в широком контексте выявляется близость их убеждений, мировоззрения, положительное влияние этих личностей на жизненный и творческий путь Г.Джавида.

III глава диссертации - «Творчество Гусейна Джавида в контексте общественно-литературной среды эпохи» - состоит из 6 разделов. В данной главе исследуется следущий после 1898 года этап в жизни и творческом пути Г.Джавида, годы учебы в Южном Азербайджане - Тебризе и Урмии, лечение у офтальмолога, представление им материалов для публикации в газете «Шарги-Рус», письма, адрессованные М.Сидги,

также рассмотрены турецкий период в биографии поэта, его связи со стамбульской литературно-просветительской средой, знакомство с европейской литературой и философией, представление в «Фиюзат» и «Иршад» стихотворений, написанных в Турции. К исследованию привлечены заметки к стихам, созданным в годы учебы в Турции - Стамбуле, Беюкдаря, Кахытханя, Беюкада. Также отмечается, что эти поэтические образцы молодого романтика печатались не только в журнале «Сиратуль-Мустагим», но и в таких печатных органах, как «Ичтихад», «Адабиат-Умумийа», первой эмигрантской газете «Ени-Кавкасия», в то же время отмечается участие поэта в «Ени-Мечмуа.»

В диссертации уточняются факты, связанные с отъездом Джавида в Турцию, причины этой эмиграции. Сопоставление произведений поэта и турецких романтиков приводит к выводу, что, наряду с определенными созвучиями в их творчестве, в то же время индивидуальное своеобразие творений Г.Джавида свидетельствует о его исключительной оригинальности как мастера пера.

В диссертации также определяется место в жизни и литературно-культурной деятельности Г.Джавида гянджинской, тифлисской, бакинской среды (период до репрессии), анализируется период его жизни в Германии и произведения, созданные под впечатлением от этой поездки.

В III главе - «Г.Джавид и общественно - литературная среда в Азербайджане советского периода" - к исследованию привлечена проблема, связанная с двойственным отношением к Джавиду литературной критики, дается оченка к критики, служившей официальной иделогии эпохи. Предметом рассмотрения также служат материалы литературных судилищ на предмет творчества поэта, отношение к этому творчеству Джафара Джаббарлы, дается широкая информация о клеветнических публикациях литературной критики в адрес поэта

Разработки, посвященные взаимоотношениям Г.Джавида и Дж. Джаббарлы, проливают свет на целостную картину той эпохи и среды. Литературные успехи и трудная судьба Г.Джавида, фактор Гейдара Алиева в реаблитации поэта, связанные с ними факты, высокая оценка со стороны общенационального лидера искусства Гусейна Джавида, ставщего жертвой репрессии. В новом ракурсе, в контексте современной эпохи исследуется проблема эстетического идеала Г.Джавида.

Биография, эпоха, среда и современники, творческий путь Джавида как поэта сложного, тяжелейшего и вместе с тем важного периода в национальной литературе (начало XX века) исследованы и представлены в элиминации от догм советской идеологии, на основе реальных фактов и документов, «неопровержимой информации», принципов объективного историзма. В диссертации творчески использована богатая научная литература, джавидоведческий опыт, публикации периодической печати и архивные материалы, способствуюшие получению объективных научных результатов.